## AVROPA PARLAMENTİNİN İLLİK HESABATI: AZƏRBAYCANIN TƏŞƏBBÜSLƏRİ VƏ MÖVQEYİNİN MÖHKƏMLƏNMƏSİ

Son illər beynəlxalq təşkilatların Azərbaycanla bağlı ədalətli mövqe tutması bir tendensiya halını alıb. Bu, qəbul edilən sənədlərdə də öz ifadəsini tapmaqdadır. O cümlədən Avropa İttifaqının getdikcə daha böyük miqyasda Azərbaycan həqiqətlərini etiraf etdiyini ifadə edən sənədlər qəbul edilir. Onlardan biri bu il dekabrın 12-də qəbul edilib. Həmin sənəd Aİ-nin illik fəaliyyəti ilə bağlı analitik-proqnostik müddəaları özündə ehtiva edən hesabat-məruzədir. Burada göstərilir ki, Aİ tərəfdaş dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını...



Bax səh. 3

## AMEA-DA AKADEMİK CƏLAL ƏLİYEVİN ANADAN OLMASININ 90 İLLİYİNƏ HƏSR EDİLƏN BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB

Dekabrın 17-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim və ictimai-siyasi xadim, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycan alimləri ilə yanaşı, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan...



Bax səh. 5



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 18 dekabr 2018-ci il, çərşənbə axşamı / № 238 (5365). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir



*Prezident İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə təbrik məktubu göndərib.

❖ ❖ ❖

Prezident İlham Əliyev Qətər Dövləti Əmirinin müavini Əlahəzrət Şeyx Abdullah bin Həməd Al Taniyə təbrik məktubu göndərib.

❖ ❖ ❖

Prezident İlham Əliyev elektrik enerjisi istehsalının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev İlham Mehdixan oğlu İsmayılovun Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası müdafiə sənayesi işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası müdafiə sənayesi işçilərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

## "Azərbaycanın media məkanında ədəbi dilin qorunmasına dəstək" layihəsi çərçivəsində "dəyirmi masa" keçirilib

Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və Mətbuat Şurasının təşkilatçılığı ilə "Azərbaycanın media məkanında ədəbi dilin qorunmasına dəstək" layihəsi çərçivəsində "dəyirmi masa" keçirilib. Tədbirdə iyun-noyabr ayları ərzində keçirilmiş monitorinqlə bağlı nəticələr də açıqlanıb. AZƏRTAC xəbər verir ki, Mətbuat Şurasının sədri Əflatun Amaşov...

Bax səh. 6



## BAŞ NAZİR NOVRUZ MƏMMƏDOV XALQ RƏSSAMI TAHİR SALAHOVUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLƏN SƏRGİ İLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov dekabrın 15-də Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı...

Bax səh. 4

## ŞƏHİD HƏRBİ QULLUQÇULARIN AİLƏLƏRİNƏ BİRDƏFƏLİK ÖDƏMƏNİN VERİLMƏSİ PROSESİ TAM ŞƏFFAF ŞƏKİLDƏ HƏYATA KEÇİRİLİR

Azərbaycan sosial dövlətdir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda ədalətli resurs bölgüsü həyata keçirilir və qayğıya ehtiyacı olan bütün vətəndaşlar, o cümlədən də şəhid ailələri, müharibə əlilləri dövlət tərəfindən dəstəklənir. Respublikamızda doğma Vətənin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin ailələrinə, eləcə də müharibə əlillərinə dövlət qayğısı çoxşaxəli səciyyə daşıyır. Ölkəmizdə şəhid ailələrinə 242 manat məbləğində aylıq Prezident təqaüdü verilir. Eyni zamanda, Milli Qəhrəmanlara və ya həlak olanların ailələrinə aylıq 1500 manat Prezident təqaüdü ödənilir. Müvafiq kateqoriyadan olan insanların əmək pensiyasına hər ay müəyyən həcmdə vəsait əlavə olunur. Eləcə də əmək pensiyası almaq hüququ olmayan...

Bax səh. 7



## OQTAY ƏSƏDOV: AZƏRBAYCAN VƏ GÜRCÜSTAN STRATEJİ TƏRƏFDAŞLARDIR

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov gürcü xalqını yeni Prezidentin seçilməsi münasibətilə təbrik edib. Milli Məclisin sədri deyib ki, Gürcüstan Azərbaycana qardaş ölkədir. Gürcüstanın bayramı Azərbaycanın bayramıdır...

Bax səh. 4

### Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş olub



Dekabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Ərzurum Vilayətinin valisi Okay Memiş və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən...

Bax səh. 4

### *Siyavuş Novruzov:* Avropalılar gəlib Azərbaycan polisindən nümunə götürməlidirlər



"Bizim polislər aksiyalar zamanı etirazçılara qarşı çox səbirli və təmkinli davranırlar. Hesab edirəm ki, Qərb və Avropa dövlətlərinin polisləri...

Bax səh. 4

### Bakıda "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib



Dekabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki...

Bax səh. 6

### Ölkəmiz bu il idman sahəsində böyük nailiyyətlər qazanıb



...Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük uğurlar qazanılır. Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə...

Bax səh. 6

### *Cavanşir Feyziyev:* Azərbaycan Avropa İttifaqının Cənubi Qafqazda ən etibarlı tərəfdaşıdır



Bu il dünyanın müxtəlif ölkələrində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyinə həsr olunan silsilə tədbirlər keçirilib...

Bax səh. 5

# Prezident İlham Əliyev: Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir

## Prezident İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib





Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident İlham Əliyevə raport veriblər.

Burada ümumilikdə səkkiz bina tikilib. Binaların həyətində uşaq əyləncə meydançası, sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət guşələri yaradılıb.

Dövlətimizin başçısı mənzillərdə yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə mənzillərdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci ildə imzaladığı Fərmana əsasən, bu binalardan ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil hərbi qulluqçular üçün ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır. Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunub.

> *"Hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq Fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir"*

Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsi baxımından tarixi əhəmiyyətli işlər görülüb. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əməkhaqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin Fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib.



Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşüb.

> *"Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar"*

Dövlətimizin başçısı görüşdə çıxış edib: **"Əziz hərbçilər, əziz dostlar.**

**Bu gün hərbçilərin həyatında çox əlamətdar bir gündür. Bu gözəl binada 394 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilir. Mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, bu gözəl binada rahat yaşayasınız.**

> *"Builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır"*

**Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq Fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib. Mənzillərin hamısı çox gözəldir. Mən bu binaların açılışlarında şəxsən iştirak etmişəm və bu gün də tanış olduğum mənzillər çox rahat, geniş və təmirli mənzillərdir. Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir.**





**Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır.**

> *"Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır"*

**Onu da bildirməliyəm ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir.**

> *"Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik"*

**Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik.**

**Siz onu da bilirsiniz ki, builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır.**

> *"Həm Aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər"*

**Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm Aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər.**

> *"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir"*

**Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir.**

> *"Bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir"*

**Ordu quruculuğu prosesində əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Bax, bu gözəl binada 400-ə yaxın hərbçi ailəsinin yaşaması dediyim sözlərin bariz nümunəsidir, təsdiqidir. Mən bu gözəl binada yaşayacaq bütün hərbçiləri bu hadisə münasibətilə bir daha təbrik edirəm. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sağ olun".**

> *"Hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb"*

* * *

Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim edib.

> *"Bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır"*

Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Rafiq Quliyev öz adından və hərbçi yoldaşları adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlığını bildirərək deyib: **"Cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində biz hərbçilərə bəxş etdiyiniz bu sevincə görə bütün hərbçilər və onların ailə üzvləri adından Sizə dərin minnətdarlığımızı bildiririk. Əmin ola bilərsiniz ki, bundan sonra da hərbi anda sadiqik və Sizin bütün əmrlərinizi yerinə yetirməyə hazırıq".**

**Prezident İlham Əliyev**: Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

Prezident İlham Əliyev hərbi qulluqçuların ailə üzvləri ilə söhbət edib.

# Avropa Parlamentinin illik hesabatı: Azərbaycanın təşəbbüsləri və mövqeyinin möhkəmlənməsi




Son illər beynəlxalq təşkilatların Azərbaycanla bağlı ədalətli mövqe tutması bir tendensiya halını alıb. Bu, qəbul edilən sənədlərdə də öz ifadəsini tapmaqdadır. O cümlədən Avropa İttifaqının getdikcə daha böyük miqyasda Azərbaycan həqiqətlərini etiraf etdiyini ifadə edən sənədlər qəbul edilir. Onlardan biri bu il dekabrın 12-də qəbul edilib. Həmin sənəd Aİ-nin illik fəaliyyəti ilə bağlı analitik-proqnostik müddəaları özündə ehtiva edən hesabat-məruzədir. Burada göstərilir ki, Aİ tərəfdaş dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Yeni, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn hamılıqla tanınmış normaları və prinsiplərinə uyğun həll edilə bilər. Bu, çox vacib məqamdır. Eyni zamanda, sənəddə qlobal miqyasda gedən proseslərə Aİ-nin baxışları və yaranmış vəziyyətin mümkün inkişaf istiqamətləri əks olunub. Yəni məsələyə bütövlükdə dünyanın geosiyasi mənzərəsi prizmasından nəzər salmaq imkanı vardır. Məhz bu kontekstdə biz sənəddə yer almış müddəalar üzərində daha geniş dayanmağa ehtiyac gördük.

### HESABAT SƏNƏDİ: REALLIQ VƏ ETİRAFLAR

Bu günlərdə Strasburqda Avropa Parlamentinin plenar sessiyasında qurumun xarici əlaqələr komitəsinin hazırladığı "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabat" dinlənilib. Hesabat-məruzə 29 maddədən ibarətdir. Bir neçə bəndə ümumi prinsiplər əks edilib. Məruzəçi xarici əlaqələr komitəsinin sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlister olub. Dekabrın 12-də həmin sənəd Avropa Parlamentində böyük səs çoxluğu ilə qəbul edilib (bax: Annual report on the implementation of the Common Foreign and Security Policy (2018/2097(INI)) /europarl.europa.eu, 26 noyabr 2018).

Məruzə ekspertlərin diqqətini iki aspektdə cəlb edib. Hər şeydən öncə, Avropa İttifaqının bir təşkilat olaraq xarici siyasət istiqamətində yeritdiyi kursun reallaşmasını necə qiymətləndirməsi maraq doğurur. Çünki mütəxəssislər bütövlükdə bu təşkilatın siyasi aqibəti haqqında fərqli proqnozlar verirlər. Ümumi mənzərənin Aİ-nin daxilində necə qiymətləndirildiyi əhəmiyyətlidir. İkinci aspekt Aİ-nin müxtəlif regional münaqişələrin həllinə münasibəti ilə bağlıdır. Bu kontekstdə Cənubi Qafqazda illərdir mövcud olan münaqişələrin həllinə Brüsselin baxışları aktualdır.

Bu prinsiplərin fonunda Aİ-nin, ümumiyyətlə, yeni müstəqil ölkələrlə bağlı siyasəti üzərində düşünmək olar. Bu məsələ də uzun illər son dərəcə aktual məzmun kəsb etməyə başlayıb. Səbəbi ondan ibarətdir ki, xüsusilə, postsovet məkanında əhəmiyyətli geosiyasi və siyasi proseslər daha da aktivləşib. Meydana çıxan faktorların obyektiv qiymətləndirilməsi və uyğun nəticələrin əldə edilməsi mühüm əhəmiyyət kəsb edir.

İlk növbədə, onu da vurğulayaq ki, Avropa Parlamentində sənədin böyük səs çoxluğu ilə qəbulu da təsadüfi deyil. Pərdəarxası proseslərdə millətlərin öz müqəddəratını təyinetmə prinsipi ilə dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi arasında gərgin mübarizə gedib. Bir sıra ermənipərəst deputatlar özünütəyinetmə hüququnu süni şişirtməyə cəhd göstərib. Onlar 2017-ci ildə ciddi məğlubiyyətə uğramışdılar. O zaman Avropa İttifaqının Brüsseldə keçirilən "Şərq tərəfdaşlığı" sammitinin birgə bəyannaməsində tərəfdaş ölkələrin hər birinin suverenliyinin, ərazi bütövlüyünün təmin edilməsi və sərhədlərinin toxunulmazlığı yer almışdı. 2018-ci il dekabrın 12-də qəbul edilən sənəd bunun məntiqi davamıdır.

Bununla yanaşı, yeni qəbul edilən sənəddə mühüm bir məqam da öz ifadəsini tapıb. Biz, bütövlükdə Avropa İttifaqının geosiyasi proseslərə yanaşmasında özünü göstərən prinsipləri nəzərdə tuturuq. Bu təşkilat son illər qlobal miqyasda baş verən dəyişikliklərdən müəyyən nəticələr çıxarmağa başlayıb ki, bu da sənədin giriş hissəsində yer almış müddəalarda özünün konkret ifadəsini tapıb.

Aİ hesab edir ki, təhlükəsizlik sferasında vəziyyət qeyri-stabildir. O, gözlənilməzlik, qeyri-müəyyənlik və öncədən proqnozlaşdırılmayan proseslərin meydana çıxa bilməsi ilə xarakterizə olunur. İkinci dünya müharibəsindən sonra bu cür riskli mənzərə yaranmamışdı. İndiki durumda dövlətlərarası münaqişələr, təbii fəlakətlər, terrorizm, baş tutmayan dövlətlər, kiberhücumlar və hibrid müharibələr adi hala çevrilib (bax: əvvəlki mənbəyə). Bu vəziyyət Aİ üçün iki məsələni daha da aktuallaşdırıb: birincisi, təşkilatın özünün təhlükəsizliyinin təmini; ikincisi, Aİ-yə qonşu ölkələrlə münasibətlərin konstruktiv məcrada inkişafına nail olunması. Bu zaman Brüssel hesab edir ki, Aİ öz maraqları və dəyərlərini qorumaq kimi böyük məsuliyyət daşıyır.

Deməli, sənəddə faktiki olaraq qonşu ölkələrlə münasibət Aİ-nin taleyüklü problemi statusunda müəyyən edilir və təşkilatın bunun məsuliyyətini daşıdığı vurğulanır. Məsələnin bu müstəvidə qoyuluşu Aİ-nin qonşu ölkələrlə münasibətləri məsələsini Brüsselin xarici siyasətinin prioritetlərindən biri kimi görmək istədiyini ifadə edir. Həm də bu məqam Aİ-nin strateji məqsədləri sırasında yer alır. Bu o deməkdir ki, qonşu ölkələrlə əlaqələr məsələsi ötəri xarakter daşımayıb, əksinə, artıq Aİ-nin ümumən strateji fəaliyyət doktrinasının əsas müddəalarından biri statusunu alır. Daha konkret ifadə etsək, Brüssel Aİ-nin təhlükəsizliyini ancaq qonşu ölkələrlə münasibətlərin necə olacağı ilə bağlayır. Eyni zamanda, Avropa İttifaqı öz maraq və dəyərlərinin təmin edilməsini fəaliyyətinin başlıca şərti olaraq görür. Bu da onu deməyə əsas verir ki, Aİ qlobal geosiyasətdə ayrıca söz sahibi olmaq iddiasından əl çəkmək fikrində deyil.

Belə bir məqsədi qarşısına qoymaq təşkilat üçün asan qərar deyil. Yenə də həmin sənədə görə, 2050-ci ilə qədər Aİ əhalisi dünya əhalisinin cəmi 5 faizini təşkil edəcək. 1960-cı ildə isə bu rəqəm 13 faiz olub! Yəni qarşıda demoqrafik problem var. Ən çox artım Afrikada gözlənilir. Bu o deməkdir ki, dünya əhalisinə əlavə olunacaq 2,4 milyardın 1,3 milyardı Afrikada dünyaya göz açacaq. Bu vəziyyət avtomatik olaraq kasıb ölkələrdə çoxlu sayda problemlər meydana gətirəcək. Əgər onlar sürətlə aradan qaldırılmasa, həm Afrika, həm də Aİ üçün dağıdıcı proseslər baş verə bilər.

Görünür, bu qənaəti Brüssel hazırda müşahidə edilən miqrasiya proseslərinin ümumi xarakterini nəzərə alaraq ifadə edir. Belə ki, Avropada əhalinin azalması fonunda kənardan gələn və fərqli mədəniyyətə malik insanların sayının artması bütövlükdə irq olaraq avropalıları təhlükə altına salır. Əgər bu tendensiya güclənsə, "Qoca qitə"də demoqrafik vəziyyət doğrudan da çox mürəkkəbləşəcək. Meydana qarşısı çətin alınan yeni problemlər çıxacaq.

Avropa İttifaqı ölkələrini narahat edən digər məsələ 2050-ci ildə dünya geosiyasətində yeni qüvvələr balansının yaranması ehtimalının yüksək olmasıdır (bax: əvvəlki mənbəyə). Hesabat-məruzədə vurğulanır ki, həmin müddətə dünyanın aparıcı gücləri ABŞ, Çin və Hindistan ola bilər. Onların siyasi təsir sahəsi daha da genişlənər və lider mövqeyinə çıxarlar. Bunun fonunda isə Aİ-nin dünyanın super iqtisadi güclərindən biri olmaq şansı əldən çıxar. Bununla da həm Aİ-nin ayrı-ayrı üzvləri, həm də təşkilat bütövlükdə fərqli dünya siyasi balansı ilə üz-üzə qala bilər. Belə bir vəziyyət Avropa üçün yeni problemlər, o cümlədən dünyanın qlobal idarəetmə institutlarının möhkəmləndirilməsi zərurətini meydana gətirə bilər.

Brüsselin proqnozları bunlarla məhdudlaşmır. Sözügedən məruzənin müəllifləri vəziyyəti daha geniş miqyasda analiz etməyə çalışırlar. Onlar göstərirlər ki, formalaşmaqda olan "yeni dünya nizamı getdikcə daha çox asimmetriya ilə xarakterizə olunur" (bax: əvvəlki mənbəyə). Bunun səbəbi qeyri-dövlət subyektlərinin dünya siyasətində getdikcə daha ciddi rol oynaması ilə bağlıdır. Onlar son 10 ildə təsir dairələrini genişləndiriblər. Buraya QHT-lər, insan haqları ilə məşğul olan, ədalətli ticarət və təbii resurslardan rasional istifadə uğrunda mübarizə aparan qeyri-hökumət təşkilatları, transmilli şirkətlər, sosial şəbəkə fealları daxildir. Həmin qruplarla yanaşı, cinayətkar qruplaşmalar və terror təşkilatlarını da kənara qoymaq olmaz. Onlar dağıdıcı istiqamətdə fəaliyyət göstərirlər ki, yekunda sistemdən kənar subyektlər kimi dünyadakı vəziyyətə təsir edirlər.

### Aİ-YƏ İKİ İSTİQAMƏTDƏN TƏHLÜKƏ: ƏMƏKDAŞLIQLA XAOS ARASINDA

Bütün bunlar Aİ-yə iki aspektdə zərbə vurur. Birinci aspekt Aİ-nin mahiyyətinə uyğun olan çoxtərəfli əməkdaşlığa maneələr törətməklə bağlıdır. Ölkələr arasında ixtilaflar meydana çıxır, silahlı toqquşmalar baş verir və qeyri-müəyyənlik artır. İkincisi, yeni yaranan heç bir dövlətin və ya qeyri-dövlət şəbəkəsinin dünyanın supergücü olmaq şansı yoxdur. Deməli, yenə də məsuliyyət artıq oturuşmuş böyük güclərin, o cümlədən Aİ-nin üzərinə düşür.

Bunların fonunda artıq "dünya ictimaiyyəti dərk etməyə başlayıb ki, transmilli problemlərin həlli və qlobal idarəetmənin daha da yaxşılaşdırılması üçün transmilli qərarlar zəruridir" (bax: əvvəlki mənbəyə). Ancaq dünya əhalisinin demək olar ki, dörddə birinin qeyri-stabil dövlətlərdə yaşadığı bir şəraitdə buna nail olmaq asan deyil. Həmin insanlar sosial-iqtisadi bərabərsizliyin qida mənbəyinə çevrilirlər. Bu isə sabitliyə, demokratiyaya və sülhə birbaşa təhlükə yaradır.

Aİ-ni o da narahat edir ki, maliyyə böhranı, miqrasiya problemləri, avroskeptisizmin yüksəlişi, xarici siyasətdə qeyri-ardıcıllığın üstünlük təşkil etməsi, Avropa ictimai rəyində qlobal siyasətə təsirə baxışlarda fərqlərin olması təşkilatın özünəməxsus strategiyasının formalaşmasına ciddi maneələr törədib. Bu da Aİ-ni proseslərin subyekti yox, obyektinə çevirib, yəni Brüssel dünya siyasətinin ssenarisinin yazılmasında iştirak etmir, başqalarının qəbul etdiyi qərarlara reaksiya verməyə məcbur olur. Halbuki Aİ siyasətdə dünya standartları üzrə "lider qalmaqda davam edir" (bax: əvvəlki mənbəyə).

Bu boşluqdan Çin və Rusiya istifadə etməyə çalışırlar. Onlar mövcud beynəlxalq hüququ qəbul etmək əvəzinə, onun qarşısına bir sıra "problemlər" çıxarırlar. Konkret olaraq, Çin və Rusiya demokratik islahatlara və beynəlxalq hüququn təkmilləşməsinə "xidmət göstərmirlər".

Ancaq Aİ üçün məsələlər bununla məhdudlaşmır. Sənəddə ABŞ, İran və onlarla yanaşı bir sıra terror təşkilatları ayrıca qeyd olunur. Belə ki, Amerikanın İranla imzalanmış sazişdən çəkilməsi Yaxın Şərqdə təhlükəsizliyə böyük təhdid kimi qiymətləndirilir. İranla qanuni iş əlaqəsi quran Avropa şirkətlərinə ikiqat vergi qoyulması isə dərin təəssüf hissi doğurur. Bu, Avropanın iqtisadi suverenliyinə də ziyan verir. Dolayısı ilə Aİ-nin ticarət əlaqələrinin dollardan asılılığına yardım edir. Bunu Brüssel artıq problem olaraq qəbul edir.

Hesabat-məruzədə bütün bunlarla bərabər, İŞİD, "əl-Qaidə" və digər beynəlxalq terror təşkilatlarının Aİ üçün ciddi təhlükə törətdiyi ayrıca bəndlə vurğulanır (bax: əvvəlki mənbəyə). Bunların nəticəsi olaraq Aİ vahid təşkilat kimi sistemli, ardıcıl və məqsədyönlü siyasət yeritməli və hər bir üzv dövlət bu işə öz töhfəsini verməlidir. Lakonik deyilsə, Brüssel Aİ-nin qlobal strategiyasını reallaşdırmağa qərarlıdır.

Beləliklə, "Avropa İttifaqının öz taleyini öz əlinə alması üçün zaman yetişib" (bax: əvvəlki mənbəyə). Təşkilat beynəlxalq münasibətlərdə tam müstəqil, suveren siyasi və iqtisadi güc olaraq çıxış etməlidir. O cümlədən bütün dünyada münaqişələrin həllində aparıcı rol oynamalı, qlobal idarəetməni formalaşdırmalıdır. Bunun üçün real olaraq ümumi Avropa xarici siyasəti və təhlükəsizlik sahəsində siyasət gərəkdir. Bu siyasət strateji və müstəqil olmalı və Avropanın inteqrasiyasına xidmət etməlidir. Çünki belə bir əminlik vardır ki, ayrı-ayrılıqda heç bir üzv dövlət müasir qlobal çağırışlara cavab verə bilməz. Yalnız birgə fəaliyyət üzv dövlətlərə beynəlxalq danışıqlarda geniş imkanlar açaqa bilər. Bir sıra üzv dövlətlərin milləti mövqe tutması bu prosesə zərər verir, ümumavropa dəyərlərini yaymağa maneələr törədir.

Bütün bunlar xarici əlaqələrdə yeni məzmun kəsb edən xətt seçməyə əsas yaradır. Bu kontekstdə sülh, demokratiya, bərabərlik, qanunun aliliyi, BMT sisteminin və regional təşkilatların dəstəyi ilə beynəlxalq nizamın təmini, "münaqişələrin həlli və idarə edilməsinə üstünlük vermək, sülhyaratma və institusional inkişaf", dayanıqlı inkişafa yardım, iqtisadi əməkdaşlıq, ədalətli ticarət və s. əhəmiyyət kəsb edir (bax: əvvəlki mənbəyə).

Yekun olaraq bu kimi addımların atılması həm Aİ daxilində vətəndaşların həyatına müsbət təsir etməyi, iqtisadi əməkdaşlığı genişləndirməyi, bütün dünyada təhlükəsizliyin və sabitliyin təminini, böhranlar yaranana qədər onların aradan qaldırılmasını, münaqişələrin dinc yolla həllinə yardım etməyi nəzərdə tutur.

### PREZİDENT İLHAM ƏLİYEVİN UĞURLARI: ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYƏ DƏSTƏK

Sənəddə vurğulanan bu kimi məqamlar əhəmiyyətli geosiyasi nəticələr çıxarmağa əsas verir. Öncə onu qeyd edək ki, Aİ-nin hazırkı vəziyyəti onu daxili və xarici siyasətdə transformasiyalar etməyə məcbur edir. Bunu, ilk növbədə özünün dünyadakı varlığını qoruyub saxlamaq naminə etməlidir. Sənəddə qeyd edilən müddəalar da bir daha sübut edir ki, Brüsselin indi yeritdiyi siyasət qarşısına qoyduğu hədəflərə tam çatmağa imkan vermir. Avropa İttifaqı dəyişməlidir ki, qlobal siyasətdəki yeri və rolunu yeniləşdirə bilsin.

Bunun üçün həyata keçirməli olduğu proqramlar sırasında qonşu saydığı ərazilərdə münaqişələrin həlli başlıca yerlərdən birini tutur. Çünki əks halda, həmin ərazilərdən Aİ-yə daim təhlükələr özünü göstərəcək ki, bu da bütövlükdə təşkilatın varlığına risklər yaradır, beynəlxalq əməkdaşlığa zərbələr vurur. Onda Brüssel ciddi şəkildə "Şərq tərəfdaşlığı" proqramına yenidən baxmalıdır. O cümlədən münaqişələrin həllində rolu məsələsinə düzəlişlər etməlidir.

Məhz bu kontekstdə 2015-ci il Riqa sammitindən sonra Aİ regional münaqişələrə ikili standartlar çərçivəsində yanaşmadan uzaqlaşmağa çalışır. Ədalət naminə etiraf edək ki, bu prosesdə ona ciddi maneələr törədən qruplar vardır. Onların sırasında ermənilərə Avropada havadarlıq edən dairələr xüsusi yer tutur. Deyək ki, Avropa Parlamentində rəsmi İrəvana lobbiçilik edən qruplar mövcuddur. Onlardan biri "Ermənistanın avropalı dostları" (EuFoA) adlanır. Bu qruplar deputatları pulla ələ alaraq onları yalan danışmağa sövq edirlər. Maraqlısı odur ki, son iki ildə ermənilərin bu kimi fırıldaqlarının tərəfdarları azalır. Buna görədir ki, Aİ-də Ermənistanı qane etməyən daha çox sənəd qəbul edilir. Dekabrın 12-də qəbul edilən sənəd bu kontekstdə çox əlamətdardır.

Həmin sənəddə yazılıb ki, Aİ bir daha öz tərəfdaşlarının suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün təminini dəstəyini bəyan edir. Aİ vurğulayır ki, bütün "dondurulmuş münaqişələr"in beynəlxalq hüquq qaydaları, normaları və prinsipləri əsasında həll edilməsinə sadiqliyini təsdiqləyir. Zərər görmüş əhaliyə, məcburi köçkünlərə, qaçqınlara yardımını bir daha vurğulayır. Üçüncü ölkələr tərəfindən vəziyyətin sabitlikdən çıxarılması cəhdlərinə qarşı durmağı ayrıca vurğulayır. Bu kontekstdə Aİ Rusiyanın Ukrayna və Gürcüstandakı hərəkətlərini pisləyir. Xüsusi olaraq vurğulayır ki, "Rusiya Krımı anneksiya edib", "Ukraynanın şərqinə müdaxilədə bulunub", "Gürcüstanın ərazisini işğal edib" (bax: əvvəlki mənbəyə).

Bu cür formuldan iki mühüm siyasi nəticə çıxara bilərik. Əvvəla, Aİ Azərbaycan da daxil olmaqla bütün tərəfdaşlarının suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qəbul edir. İkincisi, Aİ konkret olaraq Ukrayna və Gürcüstanın işğala məruz qaldığını ayrıca qeyd edir. Birinci müddəanın Aİ-nin sənədində yer almasında Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna xidməti vardır. Bunu konkret faktlar sübut edir.

Hələ Riqa sammitində Prezident İlham Əliyev Aİ-yə assosiativ üzvlüyün qüsurlu tərəflərini geniş izah etdi. Lakin Azərbaycanın bu təşkilatla strateji tərəfdaşlıq qurmaqda maraqlı olduğunu da bəyan edib konkret proqram təklif etdi. Brüssel bu təklifləri araşdırıb uyğun nəticələr çıxardı. Onların sırasında 2017-ci ildə Aİ-nin sənədində açıq surətdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı qeyd olundu.

Prezident İlham Əliyev yalnız diplomatiya sferasında Azərbaycanın Aİ ilə səmimi münasibətlər qurmaqda maraqlı olduğunu sübut etmədi. Bakının sosial-iqtisadi, ticari, enerji, nəqliyyat-logistika sferalarında həyata keçirdiyi proqramlar göstərdi ki, Azərbaycan etibarlı və vacib tərəfdaşdır. Bu da Brüsselin ikili standartlar siyasətinə ciddi təsir etdi.

Yuxarıda apardığımız təhlil dekabrın 12-də qəbul edilən sənədin ədalətə daha da yaxınlaşdığını, ancaq hələ də müəyyən qüsurların qaldığını göstərməkdədir. Məsələn, hesabat-məruzədə Rusiya işğalçı ölkə kimi göstərilir, ancaq Ermənistanın adı çəkilmir. Ukrayna və Gürcüstanın işğala məruz qaldığı açıq vurğulanır, lakin Azərbaycandan bəhs edilmir. Səbəb nədir? Cəsarətlə deyə bilərik ki, Brüssel hələ də ikili standartlar sindromundan tam xilas olmayıb.

Ancaq təcrübə göstərir ki, Prezident İlham Əliyev Brüsselə bunu da qəbul etdirəcək. İndiyə qədər Azərbaycanla bağlı qəbul edilən bütün müsbət sənədlərin kökündə Azərbaycanın dövlət başçısının çox uğurlu xarici siyasət kursu dayanır. Yəni təşəbbüskar Brüssel deyil, onu dəyişən Prezident İlham Əliyevin siyasi iradəsi və diplomatik ustalığıdır.

Azərbaycan Prezidenti həyata keçirdiyi proqramlarla bir daha sübut edəcək ki, Azərbaycan Cənubi Qafqazda dövlətçiliyi ən çox baş tutan yeganə dövlətdir. O, Aİ-nin etibarlı və perspektivli tərəfdaşıdır. Aİ öz sənədində vurğuladığı kimi, qonşu ölkələrdən təhlükə gözləmək istəmirsə, haqqı-ədaləti müdafiə etməlidir. Sabitlik məkanı olan Azərbaycanın ədalətli tələblərinin ödənilməsinə ciddi yardım göstərməlidir. Yəni Brüssel dolayısı ilə özünün mövcudluğu naminə Cənubi Qafqaz siyasətində ikili yanaşmadan tamamilə imtina etməlidir. Biz dekabrın 12-də qəbul edilən hesabat-məruzəni bu istiqamətdə atılmış növbəti addım hesab edirik. Bu baxımdan sənəd əhəmiyyətlidir və Azərbaycan Prezidentinin apardığı xarici siyasətin təntənələrindən biridir!

**Kamal Adıgözəlov**

**Newtimes.az**

# Baş nazir Novruz Məmmədov Xalq rəssamı Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov dekabrın 15-də Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədova sərgi barədə məlumat verilib.

Bildirilib ki, sərginin ekspozisiyasında Tahir Salahovun şəxsi kolleksiyasından, Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından seçilmiş 80-dək xalça, 40-dək rəngkarlıq və rəsm əsəri, həmçinin 350-dək fotoşəkil nümayiş olunur. Ekspozisiyanın sahəsi dörd min kvadratmetrdir. Burada rəssamın yaradıcılığının bütün dövrlərinə aid əsərləri yer alıb.

Ümummilli lider Heydər Əliyevin Tahir Salahovla dostluq münasibətləri olub. Tahir Salahovun çoxşaxəli yaradıcılığı, məhsuldar ictimai fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal", 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına layiq görülüb. Dünya şöhrətli rəssam 90 illik yubileyi ərəfəsində Prezident İlham Əliyev tərəfindən Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Böyük sənətkar və tanınmış ictimai xadim olan Tahir Salahov müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi kimi uzunmüddətli, səmərəli və bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazıb. O, eyni zamanda, milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərləri ilə Azərbaycan təsviri sənətinə dünyada geniş şöhrət qazandırıb.

Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Onun mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirləri təlqin edir.

# Azərbaycan Milli Məclisinin sədri Gürcüstanda Türkiyənin vitse-prezidenti ilə görüşüb



Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov Gürcüstan Prezidentinin andiçmə mərasimində iştirak etməsi ilə əlaqədar bu ölkədə səfərdə olarkən Türkiyənin vitse-prezidenti Fuad Oqtayla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki qardaş ölkə arasında münasibətlərin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Türkiyə ilə Azərbaycan arasındakı strateji tərəfdaşlığın daha da genişlənməsindən məmnunluq ifadə olunub, bu işdə dövlətlərimizin başçılarının rolu xüsusi qeyd edilib.

Görüşdə regionda və dünyada gedən proseslər, iki ölkənin artan nüfuzu, birgə həyata keçirilən layihələr və s. məsələlər də müzakirə olunub.

Azərbaycan xarici işlər nazirinin müavini Ramiz Həsənov görüşdə iştirak edib.

# Bakıda Qətərin milli bayramı qeyd edilib



Qətərin milli bayramı ilə əlaqədar bu ölkənin Azərbaycandakı səfirliyi dekabrın 17-də rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Səfirliyin müvəqqəti işlər vəkili Xalid Məhəmməd əl-Malki tədbirdə çıxış edərək ölkəsinin keçdiyi inkişaf yolundan danışıb.

Ölkələrimiz arasında əlaqələrə toxunan diplomat Azərbaycan-Qətər münasibətlərinin bütün sahələrdə yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə öz yerini daha da möhkəmləndirdiyini vurğulayıb.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov əlamətdar gün münasibətilə Qətər xalqını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından təbrik edib. Nazir bildirib ki, Qətər dövləti dünyada ən sabit inkişafa malik ölkələrdən biridir. Azərbaycan və Qətər arasında xoş münasibətlər var. Beynəlxalq maraqların üst-üstə düşməsi əlaqələrimizi daha da möhkəmləndirir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Qətər həmişə Azərbaycanın haqlı mövqeyini müdafiə edib. Qarşılıqlı rəsmi səfərlər iki ölkə arasında əlaqələrin inkişafı baxımından əhəmiyyətli rol oynayır.

Nazir Kəmaləddin Heydərov qeyd edib ki, ölkələrimiz arasında zəruri müqavilə-hüquq bazasının yaradılması, o cümlədən 2016-cı ildə dövlətlərimizin başçılarının müvafiq qərarı ilə fəaliyyətə başlamış Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiya uğurlu əməkdaşlıq üçün mühüm platforma yaradıb.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, səfirlər, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Siyavuş Novruzov: Avropalılar gəlib Azərbaycan polisindən nümunə götürməlidirlər



**"Bizim polislər aksiyalar zamanı etirazçılara qarşı çox səbirli və təmkinli davranırlar. Hesab edirəm ki, Qərb və Avropa dövlətlərinin polisləri gəlib Azərbaycan polisindən nümunə götürməlidirlər".**

Bu fikirləri "Ölkə.Az"a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Parisdə təşkil olunan kütləvi etiraz aksiyalarına münasibət bildirərkən deyib.

Siyavuş Novruzov bildirib ki, Azərbaycan polisi dünyanın ən sivil və humanist davranan polislərindən biridir: **"Əgər dünyada baş verən hadisələrə baxsaq, görərik ki, ABŞ-dan tutmuş bütün Avropa ölkələrində qanunsuz keçirilən aksiyalara qarşı çox ciddi tədbirlər görülür. Dünya mediasından da izləyib görürük ki, həmin xarici ölkələrdə ictimai sabitliyin bərqərar edilməsi üçün atlar və itlər, gözyaşardıcı qaz və rezin güllələrdən istifadə olunur. Əfsuslar olsun ki, bunun çox yüngül forması Azərbaycanda tətbiq ediləndə kimlərsə bizə demokratiya dərsi keçməyə çalışır. Halbuki, Azərbaycanda qanunsuz aksiya zamanı saxlanılanlar sivil qaydada avtobuslara əyləşdirilərək polis bölmələrinə aparılır, orada isə onların izahatları alındıqdan sonra sərbəst buraxılırlar".**

Komitə sədri beynəlxalq təşkilatları da Azərbaycana qarşı demokratiya ilə bağlı qərəzli yanaşmaqda günahlandırıb: **"Bu gün Parisdə etiraz aksiyaları zamanı 1000-ə yaxın insan həbs olunub. Onların əksəriyyəti hələ də həbsxanalarda saxlanılır. Hazırda Fransada fövqəladə vəziyyət elan edilib, amma Avropa Şurası və Avropa İttifaqına daxil olan heç bir dövlət baş verənlərlə bağlı hər hansı fikir bildirmir, müzakirə aparmır. Bundan öncə də Hollandiyada türklərə qarşı böyük bir kampaniya başladılmışdı. İtlər və atlarla türklərə hücumlar təşkil edilmişdi. Həmin vaxt da heç bir beynəlxalq təşkilat səsini çıxartmamışdı. Yəni Qərbin özünə gələndə demokratiya yada düşmür, amma digər ölkələrdə, o cümlədən Azərbaycanda hər hansı buna bənzər hallar olan kimi dərhal hərəkətə keçirlər, bəyanat verməyə başlayırlar, məsələni Avropa Şurasında müzakirəyə çıxarırlar və sairə. Yalandan da car çəkirlər ki, ay Azərbaycanda insan haqları pozulur, insanlara sərbəst toplaşmaq üçün şərait yaradılmır və sairə. Əksinə, bu gün həmin Qərblə müqayisədə Azərbaycanda tam şərait yaradılır, başqa qüvvələrin təxribat törətməməsi üçün aksiya keçirmək istəyənlərin təhlükəsizliyi polis tərəfindən qorunur. Bunun da çox sadə yolu var, öncədən xəbərdarlıq etməklə Azərbaycanda istənilən vaxt bu cür tədbirlər keçirmək mümkündür".**

# Azərbaycan Milli Məclisinin sədri Gürcüstan Prezidentinin andiçmə mərasimində iştirak edib







Dekabrın 16-da Telavi şəhərində Gürcüstanın yeni seçilmiş Prezidenti Salome Zurabişvilinin andiçmə mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə xarici işlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin deputatı, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov və deputat Hikmət Babaoğlu daxildir.

Əvvəlcə Gürcüstanın 4-cü Prezidenti Giorgi Marqvelaşvili vida görüşü edib.

Sonra Gürcüstanın dövlət bayrağı gətirilib.

Daha sonra yeni Prezident Salome Zurabişvili tribunaya çıxıb.

Gürcüstanın yeni Prezidenti əlini ölkə Konstitusiyasının üzərinə qoyaraq xalqına, millətinə sədaqətlə xidmət edəcəyinə, insanların hüquq və azadlıqlarını qoruyacağına, ölkənin demokratik inkişafına sadiq qalacağına and içib.

Mərasimdə iki minə yaxın insan, o cümlədən 55 ölkədən 150-dən çox qonaq iştirak edib.

# Oqtay Əsədov: Azərbaycan və Gürcüstan strateji tərəfdaşlardır



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov gürcü xalqını yeni Prezidentin seçilməsi münasibətilə təbrik edib. Milli Məclisin sədri deyib ki, Gürcüstan Azərbaycana qardaş ölkədir. Gürcüstanın bayramı Azərbaycanın bayramıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, Prezident Salome Zurabişvilinin inauqurasiya mərasimində iştirak edən Milli Məclisin sədri Oqtay Əsədov Gürcüstan xalqını yeni Prezidentin seçilməsi münasibətilə təbrik edib, xoşbəxtlik və firavanlıq arzulayıb.

Azərbaycan parlamentinin sədri deyib ki, Gürcüstan və Azərbaycan strateji tərəfdaşlardır. Ölkələrimiz arasında sıx münasibətlər var. Gürcüstanın yeni dövlət başçısının andiçmə mərasimində iştirak etmək bizim üçün vacibdir. Biz Gürcüstanla həmrəyliyimizi ifadə edirik. Burada olmağımızdan məmnunuq.

Xatırladaq ki, ki, Salome Zurabişvilinin andiçmə mərasimində Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə xarici işlər nazirinin müavini Ramiz Həsənov, deputatlar Əflatun Amaşov və Hikmət Babaoğlu daxil olub.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş olub



Dekabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Ərzurum Vilayətinin valisi Okay Memiş və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ali Məclisin Sədri qonaqları Naxçıvanda görməkdən məmnunluğunu bildirərək deyib ki, Azərbaycanın inkişafı Türkiyənin inkişafı, Türkiyənin inkişafı isə Azərbaycanın inkişafıdır. Naxçıvan Muxtar Respublikası ilə Ərzurum vilayəti arasındakı münasibətlərin tarixinə diqqəti çəkən Ali Məclisin Sədri qarşılıqlı əlaqələrin inkişafının hər iki tərəf üçün faydalı olduğunu qeyd edib. Ali Məclisin Sədri muxtar respublika ilə Türkiyənin yaxın vilayətləri arasındakı təhsil əlaqələrindən danışıb, Naxçıvan Dövlət Universitetinin Türkiyənin universitetləri ilə əməkdaşlıq etdiyini vurğulayıb.

Ali Məclisin Sədri Ərzurum Vilayətinin nümayəndə heyətinin Naxçıvana səfərinin səmərəli olacağına əminliyini bildirib.

Ərzurum Vilayətinin valisi Okay Memiş göstərilən diqqətə görə minnətdarlıq edib, Naxçıvan Muxtar Respublikasına ilk dəfə səfər etdiyini və burada şahidi olduğu inkişafın onda böyük təəssürat yaratdığını bildirib. Ərzurum Vilayəti haqqında ətraflı məlumat verən vali Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin genişləndirilməsində səylərin artırılacağını vurğulayıb.

Sonra xatirə şəkli çəkdirilib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak edib.

# Milli Məclisin nümayəndə heyəti Hindistanda səfərdə olub



Hindistanın paytaxtı Yeni Dehlidə bu ölkənin hökumətinin və şəxsən Baş nazirinin ev sahibliyi ilə Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində ana, uşaq və gənclərin sağlamlığı probleminin həllində qlobal əməkdaşlığın roluna həsr edilmiş beynəlxalq forum keçirilib.

AZƏRTAC xəbər verir ki, dünyanın 85 ölkəsindən 1500-dək yüksək səviyyəli nümayəndənin iştirak etdiyi forumda Azərbaycan da təmsil olunub. Azərbaycan nümayəndə heyətinin tərkibinə Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Məlahət İbrahimqızı, Kamilə Əliyeva, parlamentin Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova, ana və uşaq sağlamlığı üzrə ekspert Xatirə Mirzəyeva daxil idi.

Forumda müxtəlif məsələlər, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində parlamentarilərin rolu müzakirə edilib.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı forumda çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi sahəsində görülmüş işlərdən, əldə olunmuş nailiyyətlərdən danışıb.

Forum çərçivəsində keçirilən müzakirələrdə Milli Məclisin deputatı Kamilə Əliyeva və parlamentin şöbə müdiri Adilə Abasova çıxış edərək Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün milli qanunvericiliyin təkmilləşdirilməsinin və bu sahədə parlamentlərin əməkdaşlığının möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin Hindistan parlamentinin deputatlarından ibarət ana, uşaq və gənclərin sağlamlığı üzrə qrupun üzvləri ilə görüşü olub.

Milli Məclisin deputatları və parlamentin şöbə müdiri, həmçinin Hindistanın məşhur Hamdard Universitetində olublar. Burada keçirilən görüşdə Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlar, qazanılan uğurlar barədə məlumat verilib.

# AMEA-da akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən beynəlxalq konfrans keçirilib

## *Görkəmli alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur*

Dekabrın 17-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim və ictimai-siyasi xadim, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycan alimləri ilə yanaşı, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Türkiyə, İran və digər ölkələrdən də alimlər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək görkəmli alimin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Konfransı açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli alimin





məruzəsində görkəmli alim Cəlal Əliyevin Azərbaycanda biologiya elminin bir sıra yeni istiqamətlərinin müəyyənləşdirilməsində və onun aktual problemlərinin həllində, bütövlükdə aqrar elmin inkişafında, buğdanın məhsuldarlığının əsası kimi fotosintez prosesinin kompleks tədqiqində rolundan bəhs edib.

Sonra Beynəlxalq Fotosintez Cəmiyyətinin təsis etdiyi akademik Cəlal Əliyev adına mükafatın təqdimatı olub.

Konfransda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, akademiklər Teymur Bünyadov, Yaqub Mahmudov, Asəf Hacıyev, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, ekologiya və təbii sərvətlər nazirinin müavini, AMEA-nın müxbir üzvü Novruz Quliyev, Milli Məclisin komitə sədri Eldar İbrahimov







zəngin elmi fəaliyyətindən, keçdiyi ömür yolundan söz açıb. Qeyd edib ki, Cəlal Əliyev ölkəmizdə bioloji müxtəlifliyin mühafizəsi və istifadəsi strategiyasının hazırlanmasında, xüsusilə Azərbaycanın elm tarixində ilk dəfə fotosintez prosesini əsaslı şəkildə öyrənib, bu sahədə uğurlu tədqiqatların aparılmasında böyük xidmətlər göstərib. Akademik Cəlal Əliyev Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin yaradıcısı, bu sahənin inkişafında mühüm xidmətləri olan alimlərdəndir. Onun rəhbərliyi ilə yeni fundamental elmi-tədqiqat işləri təşkil edilib. Görkəmli akademikin elmi yaradıcılığının əhəmiyyətli hissəsi taxılçılığın inkişafına yönəlib.

AMEA-nın prezidenti bildirib ki, ölkəmizdə elmi-praktiki əsaslar üzərində qurulan bitki seleksiyası sahəsində qabaqcıl mövqeyi ilə seçilən Cəlal Əliyev məktəbi formalaşıb. Alimin fotosintezin tədqiqi sahəsində yaratdığı məktəbin əldə etdiyi misilsiz nailiyyətlər, qazanılan uğurlar dünya elmi ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilib. O, ilkin seleksiya nailiyyətlərinin təsərrüfatlara sürətlə tətbiqini təşkil etmək üçün elmlə istehsalatın sıx əlaqəsini yaratmağa nail olub.

**"Akademik Cəlal Əliyev Azərbaycanda biologiya sahəsində tədqiqatları inkişaf etdirməklə molekulyar biologiyanın və gen biotexnologiyasının inkişafının əsasını qoyub. Onun akademiyanın elmi əlaqələrinin inkişafında da mühüm rolu olub",** - deyə A.Əlizadə vurğulayıb.

Diqqətə çatdırılıb ki, hələ keçmiş sovet dövründə nüfuzlu beynəlxalq tədbirlərdə iştirak edən Cəlal Əliyev öz elmi axtarışlarında ən son yenilikləri tətbiq edib. Məhz onun səyi nəticəsində ölkəmizdə fotosintez sahəsində böyük uğurlara imza atılıb.

Akademik Cəlal Əliyevin öz fundamental tədqiqatları ilə AMEA və Kənd Təsərrüfatı Nazirliyi arasında işgüzar münasibətlərin formalaşmasına böyük töhfələr verdiyini qeyd edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu əlaqələr artıq ciddi əməkdaşlıq müstəvisinə keçib. Görkəmli alim Azərbaycanda aqrar elmin yeni istiqamətlərini müəyyənləşdirib, onun əldə etdiyi nəticələrin tətbiqi bu sahədə dayanıqlı inkişafa yol açıb. Bu tədqiqatlar məhsuldarlığın yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Cəlal Əliyevin bioloji müxtəlifliyin mühafizəsi strategiyasının hazırlanmasında da böyük xidmətləri olub.

Nazir diqqətə çatdırıb ki, Azərbaycanda fotosintezin ilkin proseslərinin məhsuldarlıqla əlaqəsinə dair ilk tədqiqatlar akademik Cəlal Əliyevin adı ilə bağlıdır. O, biologiyanın yeni istiqamətlərinin müəyyənləşməsində, xüsusilə fotosintez sahəsində öz layiqli məktəbini yaradıb. Akademikin tədqiqatları əsasında məhsuldar, yüksək keyfiyyətli buğda sortları yetişdirilib, onların fizioloji və biokimyəvi əsasları işlənib. Respublikamızda geniş ərazilərdə becərilən bu bərk və yumşaq buğda sortları Cəlal Əliyev sortları kimi tanınır. Fermerlər "Bərəkətli 95", "Qarabağ", "Əzəmətli 95", "Qobustan", "Qırmızı gül 1", "Tale 38", "Ləyaqətli 80" sortlarını həvəslə becərirlər.

Qeyd olunub ki, akademik Cəlal Əliyevin 90 illik yubileyi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyində də xüsusi tədbirlər planı hazırlanıb. Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU), Əkinçilik Elmi-Tədqiqat İnstitutunda silsilə tədbirlər keçirilib. ADAU-da görkəmli akademikin adını daşıyan bitki fiziologiyası laboratoriyası yaradılıb. Görkəmli alimin 90 illik yubileyinə həsr edilmiş elmi əsərlər məcmuəsi nəşr olunub. Nazirliyin "Aqrar elm" jurnalının və "Kənd həyatı" qəzetinin bir buraxılışı akademik Cəlal Əliyevin elmi və ictimai-siyasi fəaliyyətinə həsr edilib.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov alimin keçdiyi həyat yolundan, elmi təşkilatçı kimi fəaliyyətindən danışıb. Bildirib ki, onun elmi fəaliyyəti əsasən ölkəmizin ərzaq təhlükəsizliyi üçün vacib olan sahələrin tədqiqinə yönəlib, alimin dərin nəzəri bilikləri və ideyaları nəticəsində yeni buğda sortlarının yaradılmasına nail olunub. Ömrünün altmış ildən çoxunu Azərbaycan elminin inkişafına həsr edən, yüzə yaxın elmi kadrlar hazırlamış görkəmli alim Cəlal Əliyev 600-dən çox elmi əsərin müəllifidir. Hələ ötən əsrin 70-ci illərində akademik Cəlal Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə bioinformatika məktəbinin əsası qoyulub. Hazırda alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur.

AMEA-nın vitse-prezidenti, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova akademik Cəlal Əliyevin həyatı və elmi fəaliyyəti haqqında danışıb. Diqqətə çatdırıb ki, Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin, o cümlədən molekulyar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının əsası keçən əsrin 70-ci illərində akademik Cəlal Əliyev tərəfindən qoyulub və əsaslı şəkildə inkişaf etdirilib. Bütün tədqiqatlarını multidissiplinar istiqamətlərdə aparan alim biologiya elmində riyaziyyatın tətbiqinə böyük diqqət yetirib. Bu gün də həmin işlərin nəticələri öz bəhrəsini verir. Həyatını fotosintez prosesinin sirlərinin öyrənilməsinə həsr edən alim bu mürəkkəb və unikal prosesi öyrənməklə dünya elminə mühüm yeniliklər gətirib.

Cəlal Əliyev öz elmi fəaliyyətini kənd təsərrüfatı bitkilərinin, əsas ərzaq bitkisi kimi buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsinə həsr edib. Azərbaycan elmi tarixində ilk dəfə yer üzərində həyatın əsasını təşkil edən fotosintez prosesinin əsaslı şəkildə öyrənilməsinə ciddi maraq göstərib və bu sahə onun elmi yaradıcılığının fundamental tədqiqat obyektinə çevrilib. Fotosintez prosesinin müxtəlif tədqiqat istiqamətlərinin inteqrasiyası hesabına "yaxşı" fotosintez haqqında təsəvvür yaradıb, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün prosesin optimallaşdırılması məsələlərini araşdırıb. O, tarla şəraitində yetişdirilən kontrast buğda və soya genotipləri ilə aparılan 40 illik təcrübələrlə sübut edib ki, fototənəffüs təkamülün gedişində formalaşmış həyati əhəmiyyətli metabolik proseslərdən biridir və bitkilərin məhsuldarlığını artırmaq məqsədilə müxtəlif yollarla fototənəffüsü azaltmaq cəhdləri əsassızdır. Cəlal Əliyevin fototənəffüs prosesi ilə bağlı əldə etdiyi bu qlobal nəticə dünya elminin tarixinə qızıl hərflərlə yazılacaq.

Qeyd edilib ki, alimin yaratdığı dünya səviyyəli müasir elmi məktəbin yetirmələri bu gün də Azərbaycanda və dünyanın ən nüfuzlu elmi mərkəzlərində tədqiqatlar aparırlar. Onun fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur. Azərbaycan elminin dünyada tanınmasında, təbliğində və beynəlxalq elmi təşkilatlarla əlaqələr qurulmasında bu böyük alimin misilsiz xidmətləri olub.

Konfransda Beynəlxalq Fotosintez Cəmiyyətinin katibi, professor Julian Eaton-Rye "Akademik Cəlal Əliyevin dünya fotosintez elminə verdiyi töhfələr" mövzusunda məruzə ilə çıxış edib. Professor və digər çıxış edənlər Cəlal Əliyevin yüksək mənəvi keyfiyyətlərindən, ictimai-siyasi fəaliyyətindən, alimin biologiya elminin inkişafına verdiyi töhfələrdən, kənd təsərrüfatı bitkilərinin, əsasən buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsində, fotosintez və fototənəffüs proseslərinin kompleks tədqiqində göstərdiyi xidmətlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüblər. Vurğulanıb ki, akademik Cəlal Əliyev ciddi və tələbkar müəllim olmaqla yanaşı, hər zaman yetirmələrinə qayğı ilə yanaşıb, səmimi tələbə-müəllim münasibəti yaradıb. Ömrünü elmə, təhsilə həsr edən Cəlal Əliyev unikal şəxsiyyət olaraq şərəfli, vicdanlı, məsuliyyətli müəllim adını daim uca tutub. Onun məktəbinin davamçıları hazırda Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Ukrayna, Koreya və digər ölkələrin nüfuzlu universitetlərində uğurla fəaliyyət göstərirlər. Alimin zəngin elmi fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikası Prezidentinin "Fəxri diplomu"na layiq görülüb, "İstiqlal" və "Şərəf" ordenləri ilə təltif edilib.

Əməkdar memar Rasim Əliyev ailə üzvləri adından çıxış edərək konfransın təşkilinə görə AMEA rəhbərliyinə, həmçinin tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Sonda akademik Cəlal Əliyevə həsr olunmuş sənədli film nümayiş etdirilib.

# Deputat: Azərbaycan-Rusiya münasibətləri sabit inkişaf xəttinə və yüksələn dinamikaya malikdir



Azərbaycan-Rusiya münasibətləri sabit inkişaf xəttinə və yüksələn dinamikaya malikdir. Bunu Trend-ə Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

O qeyd edib ki, iki ölkə arasındakı münasibətlər strateji xarakter daşıyır və çoxvektorludur: **"Bu münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli formatda, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraqlara və səmərəli əməkdaşlığa əsaslanır. Ona görə bu münasibətləri bütöv bir sistemə sahib strateji tərəfdaşlıq kimi də qiymətləndirmək olar. Sosial-iqtisadi və mədəni-humanitar sferaların bütün sahələrində bu əməkdaşlığı müşahidə etmək mümkündür. Ancaq əlbəttə ki, bu münasibətlərdə önə çıxan ən strateji məsələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində Rusiyanın həm qonşu ölkə, həm də ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi oynaya biləcəyi roldur".**

Deputatın sözlərinə görə, Rusiya tarixən ənənəvi olaraq Qafqaz regionunda ciddi hərbi-siyasi üstünlüyə malik dövlətdir və son iki əsrdə əslində bu regionu siyasi baxımdan az qala təkbaşına yenidən dizayn edən güc mərkəzidir: **"Azərbaycan bu baxımdan tarixi və hazırkı siyasi reallıqları qiymətləndirməyi yaxşı bacarır və belə əhəmiyyətli bir ölkə ilə haqlı olaraq çox dərin strateji münasibətlər qurur. 2018-ci il isə bu baxımdan olduqca əhəmiyyətli olmaqla həm də bundan sonrakı münasibətlərə yeni müsbət impulslar verən il oldu. Uzun illərdir davam edən Xəzərin hüquqi statusu ilə bağlı problemlər bütün tərəflərin maraqları nəzərə alınmaqla xüsusi konvensiya ilə həllini tapdı. Təkcə sentyabr ayında Rusiya Prezidentinin Azərbaycana, Azərbaycan Prezidentinin isə Rusiyaya işgüzar səfərləri oldu. Bundan başqa, MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən görüşündə iki ölkənin prezidentləri arasında mühüm danışıqlar aparıldı. Ona görə də Azərbaycan Prezidenti cənab İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən bu görüşü 2018-ci ildə birgə görülən işlərin təhlili və 2019-cu ildə görüləcək işlərin planlaşdırılması baxımından mühüm görüş kimi qiymətləndirdi, 2018-ci ili dövlətlərarası münasibətlərin inkişafı kontekstində məhsuldar il kimi səciyyələndirdi. Əslində təkcə bu fikirlər iki ölkə arasında münasibətlərin nə qədər yüksək səviyyədə olmasından xəbər verməklə yanaşı, həm də bu münasibətlərin olduqca böyük perspektivlərə malik olmasının göstəricisidir".**

Hikmət Babaoğlu vurğulayıb ki, regional siyasi-iqtisadi münasibətlərin potensial inkişafı və qarşılıqlı inteqrasiyası üçün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həll edilməsi vacib şərtdir: **"Bu məsələdə Rusiyanın mühüm rol oynaya biləcəyinə işarə edən Prezident İlham Əliyev 2019-cu ilin nizamlama prosesinə yeni impuls verəcəyinə ümid etdiyini bildirdi. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə iki ölkənin prezidentləri arasında 2018-ci ildə keçirilən 6 görüşdə əldə edilən razılaşmaların həyata keçiriləcəyini və bunun regional inkişafa yeni töhfələr verəcəyini söyləyərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli məsələsində Rusiyanın əlindən gələni edəcəyini bildirdi. Ümid etmək olar ki, hazırda dünyada baş verən mürəkkəb qlobal kataklizmlər kontekstində Rusiya Federasiyası öz ətrafında sabit və əməkdaşlığa meyilli bir regional ittifaq yaratmaqla, əsilndə həm də özünün təhlükəsizliyini təmin etməkdə maraqlı olmalıdır. Ümumiyyətlə, hazırda heç bir ölkə təkbaşına öz təhlükəsizliyini təmin etmək iqtidarında deyil. Bu, Rusiya diplomatiyasına da bəllidir. Ona görə də Cənubi Qafqazda ən böyük münaqişə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsi böyük ölçüdə elə Rusiyanın da cənub sərhədlərinin təhlükəsizliyinin təmin olunması deməkdir. Azərbaycan etibarlı tərəfdaş kimi daima öz milli maraqlarını regional təhlükəsizlik maraqları ilə uzlaşdırmağa və strateji müttəfiqi hesab etdiyi Rusiya ilə daha dərin münasibətlər qurmağa hazırdır".**

## Cavanşir Feyziyev: Azərbaycan Avropa İttifaqının Cənubi Qafqazda ən etibarlı tərəfdaşıdır




Bu il dünyanın müxtəlif ölkələrində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyinə həsr olunan silsilə tədbirlər keçirilib. Belə tədbirlərdən biri də Avropa Parlamentində təşkil edildi. Güclü, sabit Azərbaycan Avropa İttifaqının (Aİ) Cənubi Qafqazda ən etibarlı tərəfdaşıdır.

Bu fikirləri Avropa Parlamentində AXC-nin 100 illiyinə həsr edilmiş tədbirdə Milli Məclisin deputatı, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev AZƏRTAC-a müsahibəsində söyləyib.

Deputat qeyd edib ki, müstəqilliyimizin 100 illiyinə həsr edilmiş tədbirin Avropa Parlamentində keçirilməsi təsadüfi deyil. **"Burada Avropanın 28 ölkəsinin deputatları var. Bu ölkələrin ictimaiyyəti tariximizi, Azərbaycanın dünyada parlamentli respublika quran ilk müsəlman ölkəsi olduğunu biləcək. Tədbirdə AXC-nin tarixi ilə bağlı faktları, ölkəmizdə 100 il əvvəl demokratiyanın təməlinin qoyulduğunu, qadınlara səsvermə hüququ verildiyini avropalıların diqqətinə bir daha çatdırdıq",** - deyə C.Feyziyev vurğulayıb.

# Bakıda "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib



Dekabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı mövzunun əhəmiyyətindən bəhs edib. Bildirib ki, sosial media və onun funksiyaları hər zaman müzakirə predmeti olub və bu vasitə dünyada insanlar arasında ünsiyyət yaradılması baxımından ənənəvi medianı üstələyir.

Sosial medianın müsbət tərəfləri ilə yanaşı, müəyyən problemlərə səbəb olduğunu vurğulayan M.Qurbanlı qeyd edib ki, Avropanın ən inkişaf etmiş ölkələrində belə sosial mediaya nəzarət edilir. Çünki bu sahədə insani dəyərlərə, əxlaqa zidd məsələlərlə əlaqədar məlumatlar geniş şəkildə yayılır, təşviq və təbliğ olunur. Son dövrlərdə sosial şəbəkələr mənfi qüvvələrin, məkrli insanların, hər hansı məqsədə qulluq edənlərin də ən çox istifadə etdiyi və geniş kütlələrə təsir etməyə cəhd göstərdiyi alətə çevrilib. Dövlət Komitəsinin sədri bildirib ki, bu səbəbdən qeyd olunan mövzu Azərbaycanda da daim diqqət mərkəzindədir.

Ölkəmizdə 909 dini icmanın dövlət qeydiyyatından keçdiyini söyləyən Mübariz Qurbanlı bütün bu mənfi təzahürlərin qarşısının alınmasında din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə düşən vəzifələri qeyd edib. O, dini qurumlara dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini cəmiyyətə həm də sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməyi tövsiyə edib.

Sonra DQİDK-nın ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova "Sosial media və din" mövzusunda təqdimatla çıxış edib. Bildirib ki, müasir texnologiyaların inkişafı media sahəsində "sosial media" məfhumunun yaranmasına yol açıb. Sosial medianın artıq sosial ünsiyyət vasitəsinə çevrildiyini deyən V.Hüseynova hazırda dünyada 3 milyarddan çox insanın internetə qoşulduğunu, 2 milyarddan çox istifadəçinin fəal şəkildə sosial mediadan istifadə etdiyini qeyd edib. Azərbaycanda əhalinin 75 faizindən çoxu fəal internet istifadəçisi, 2 milyonu isə sosial media iştirakçısıdır. Sosial medianın müsbət və mənfi yönlərini sadalayan müdir müavini bildirib ki, sürətli rabitə vasitəsi olan bu sahənin insanlara həm fiziki, həm psixoloji, həm də mənəvi zərəri var. Bu gün yalan informasiya yayan, din pərdəsi altında gizlənmiş, İslamı tənqid edən qüvvələr çirkin əməlləri üçün sosial media imkanlarından çox effektli şəkildə istifadə edirlər. Sosial şəbəkə ölkədə sabitliyi pozmaq istəyənlər üçün güclü təbliğat obyektidir. Bütün bunlar da sosial medianın gücünün dəyərləndirilməsi məsələsini aktuallaşdırır. Bu sahədə müəyyən addımlar atılsa da, təəssüf ki, hələ qarşısı alınmayıb. V.Hüseynova bildirib ki, radikalizmlə mübarizə mexanizmi təkmilləşdirilməlidir və cəmiyyətə sosial media vasitəsilə İslam dininin dəyərlərini çatdırmaq üçün aktivlik göstərilməlidir. Din xadimləri bu yöndə sosial şəbəkələrdə aktiv olmalıdırlar.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, Azərbaycandakı inkişaf ayrı-ayrı ölkələr tərəfindən müsbət qarşılanmır. Bəzi Azərbaycanı sevməyən qüvvələr var ki, ölkəmizlə bağlı sistemli şəkildə qarayaxma fəaliyyəti ilə məşğul olurlar. Bütün dünyada olduğu kimi Azərbaycanda da ictimai fikrin internet üzərindən yayımlanan mətbuat orqanları, sosial şəbəkələr vasitəsilə formalaşdığını deyən deputat bildirib ki, hazırda "Mətbuat Şurası haqqında" qanun layihəsi üzərində iş aparılır və qanunda vətəndaşların şərəf və ləyaqətlərinin alçaldılmaması məsələsi diqqətdə saxlanılır.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov deyib ki, hansısa dinin daxilində fikir ayrılıqlarının olması dinin zəifləməsinə gətirib çıxarır. Dinlər arasında mehribanlıq yoxdursa, bu, bəşəriyyətə bəla gətirə bilər. Azərbaycanın dini mövqeyinin dünyaya çatdırılması və bunun artıq dünya tərəfindən öyrənilməsi ən böyük uğurlarımızdan biridir.

Qeyd edilib ki, media dünyagörüşü, biliyi olan jurnalistlərin çalışdığı sahədir. Sosial şəbəkələrdə isə fərqli düşüncəsi, əqidəsi, hətta dünyagörüşü olmayanlar da fikir paylaşırlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli diqqətə çatdırıb ki, bu gün sosial media problemi bütün dünyanı lərzəyə gətirir. Artıq media deyəndə qəzet, jurnalla yanaşı, internet media da nəzərdə tutulur. Lakin sosial şəbəkələri də media kimi qiymətləndirmək düzgün deyil.

V.Səfərli qeyd edib ki, əgər televiziya və jurnalda jurnalist hər hansı məlumat yayırsa, onlar buna görə məsuliyyət daşıyırlar. Amma sosial şəbəkələrdə bu, belə deyil. Azərbaycan tolerant ölkədir. Ölkəmizdə keçirilən tədbirlər də Azərbaycanın sabitliyini sübut edir. Hər bir vətəndaş dinindən, irqindən asılı olmayaraq onu Vətəni hesab edir. Lakin bununla yanaşı, xaricdən idarə olunan qüvvələr var.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Cavadlı bildirib ki, sosial media məlumatlandırma, maarifləndirmə və əyləndirmə funksiyasını daşıyan kütləvi informasiya vasitələrinin bir növüdür. Ölkəmizdə ilk dini sayt 2003-cü ildə açılıb və hazırda rəsmi şəkildə fəaliyyət göstərən bir neçə sayt var.

Q.Cavadlı deyib ki, sosial media ictimai rəyi formalaşdıran sosioloji amildir. Rəsmi saytlarla bərabər, qeyri-rəsmi saytlar da mövcuddur. Bəzən də həmin yazılarda ictimai rəyə təsir etmək, yönləndirmək meyilləri nəzərə çarpır. Buna diqqət yetirilməlidir. Çünki bizim hər zaman qarşımıza qoyduğumuz məqsəd Azərbaycanda dini tolerantlığa, multikulturalizmə, İslam dininin milli-mənəvi dəyərlərinin təbliğinə yönəlib.

Sonra Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparat rəhbəri Aytən Qəhrəman, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili sosial medianın rolundan danışıblar. Qeyd olunub ki, din sahəsində medianın üzərinə mühüm vəzifələr düşür. Çıxış edənlər sosial media və dini qurumlar arasındakı əməkdaşlıqdan, mənfi meyillərin qarşısının alınmasında din xadimlərinin üzərinə düşən vəzifələrdən danışıblar.

# "Azərbaycanın media məkanında ədəbi dilin qorunmasına dəstək" layihəsi çərçivəsində "dəyirmi masa" keçirilib




Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və Mətbuat Şurasının təşkilatçılığı ilə "Azərbaycanın media məkanında ədəbi dilin qorunmasına dəstək" layihəsi çərçivəsində "dəyirmi masa" keçirilib. Tədbirdə iyun-noyabr ayları ərzində keçirilmiş monitorinqlə bağlı nəticələr də açıqlanıb.

AZƏRTAC xəbər verir ki, Mətbuat Şurasının sədri Əflatun Amaşov monitorinqlə bağlı məlumat verib. O deyib ki, Şura 2011-ci ildən dilçi alimlər və peşəkar mütəxəssislərlə birgə mətbuatda monitorinqlər keçirir. Məqsəd mətbuatda Azərbaycan dilinin qorunması və dil normalarına düzgün əməl edilməsidir.

Mətbuat Şurasının monitorinq qrupunun rəhbəri İlham Abbasov qeyd edib ki, monitorinqə 15 qəzet, 10 informasiya saytı cəlb olunub. O bildirib ki, son dövrlərdə Azərbaycan mətbuatında dilin leksik normasının pozulması halları xeyli azalıb. Azərbaycan dilinin normalarına riayət olunması üçün zəruri tədbirlər görülür. Lakin leksik pozuntular azalsa da, qrammatik və üslub pozuntuları hələ də qalır.

Monitorinq qrupunun üzvü Bəhram Məmmədov deyib ki, səhvlərin böyük əksəriyyəti xarici KİV-lərdən tərcümə zamanı qeydə alınıb. Bundan başqa, bəzi jurnalistlər şifahi və yazılı dil arasında fərq qoymur.

Qrupun digər üzvləri isə bildiriblər ki, səhvlər mürəkkəb adların düzgün yazılmamasında, miqdar saylarının yerində işlənməməsində, süni sözlərdən istifadədə də özünü göstərir.

# Ölkəmiz bu il idman sahəsində böyük nailiyyətlər qazanıb

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev www.yap.org.az saytına müsahibə verib:***



**- Rauf müəllim, 2018-ci il başa çatmaq üzrədir. Bu il idman sahəsində əldə edilən nailiyyətləri necə dəyərləndirirsiniz?**

- Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük uğurlar qazanılır. Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçısı İlham Əliyevin bu yarışları izləməsi, dövlətimizin idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması da vacib məqam kimi vurğulanmalıdır.

Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Tədbirdə bu il idman sahəsində qazanılan uğurlar vurğulanıb, eləcə də yarışlarda yüksək nəticələr göstərmiş idmançılara, idman ustalarına mükafatlar təqdim olunub. Mərasimdə çıxış edən Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev bildirib ki, ölkəmizdə gözəl gənc nəsil yetişir. Dövlətimizin başçısı qeyd edib: **"Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək".**

Uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan həm də dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Azərbaycanın qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmayıb, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir.

Təqdirəlayiq haldır ki, ölkəmizdə idmanın inkişafına olan qayğı tək olimpiya idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə edir. Aidiyyəti dövlət orqanları bu cür idman növləri ilə məşğul olan idmançılarımızın beynəlxalq yarışlarda iştirakını daim maliyyələşdirir, onları gələcək qələbələrə ruhlandırmaq üçün müxtəlif stimullaşdırıcı tədbirlər görürlər. Bunun nəticəsidir ki, Azərbaycan idmançıları ağırlıqqaldırmanın yalnız peşəkarların məşğul olduğu pauerliftinq növü, peşəkar boks, kikboksinq, qaydasız döyüş və digər idman növlərində ən yüksək nailiyyətlərə imza atırlar.

**- Sizcə, idman sahəsində qazanılan uğurların əsasında hansı amillər dayanır?**

- Qeyd etmək lazımdır ki, idman insanları fiziki cəhətdən sağlam, mənəvi cəhətdən güclü edir. Gənc və müstəqil Azərbaycanda bu gün idman cəmiyyətin ayrılmaz hissəsinə çevrilib. Fəxrlə qeyd etmək lazımdır ki, bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb, beynəlxalq idman ailəsində layiqli yerini tutub. Sözsüz ki, bu uğurların təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursla bağlıdır. 1993-cü ildə Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan inkişaf dövrünə qədəm qoyub. Ümummilli lider ölkəmizdə sağlam gənc nəslin yetişməsində və uğurlarımızın təbliğində idmanın rolunu həmişə yüksək qiymətləndirib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Eləcə də respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu sahənin inkişafına xüsusi diqqət göstərir. Azərbaycanda idmanın inkişafı dövlət siyasətinin əsasını təşkil edir. İnsanların fiziki və mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayan bədən tərbiyəsi və idman dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunub.

Bu qayğı idmanın inkişafına böyük təkan verməklə yanaşı, minlərlə yeniyetmə və gəncin sağlam ruhda tərbiyə olunmasına şərait yaradır. Fərəhli haldır ki, respublikamızda idman bölmələrinə axın kütləvi xarakter alıb. Respublikamızın əksər regionlarında müasir standartlara cavab verən, hər cür şəraiti olan Olimpiya idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların istifadəsinə verilib. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması ilə bu kütləvilik daha da geniş vüsət alıb. Azərbaycanda idmana olan münasibət başqa ölkələrə nümunə kimi göstərilir. Ölkəmizin nüfuzlu idman yarışlarına və tədbirlərinə ev sahibliyi etməsi, təmsilçilərimizin mötəbər yarışlarda medallar qazanması respublikamızı dünyada inkişaf etmiş idman ölkəsi kimi tanıdıb.

**- İdman sahəsinin inkişafı həm də bütövlükdə ölkəmizin dinamik inkişafının mühüm tərkib hissəsidir...**

- Təbii ki, idman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi təbliğati-siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazandığımız medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasında dayanır. İdman ictimaiyyəti əmindir ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın daha da inkişafına böyük töhfələr verəcək.

İdmançılarımızın hər dəfə beynəlxalq arenalarda qazandıqları qalibiyyətlər, bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amillərdir. Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, böyük irəliləyişlər, inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyası bu gün Onun layiqli varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Təbii ki, idmana dövlət başçısı cənab İlham Əliyevin diqqəti idmançıları yeni qələbələrə səsləyir. Dekabrın 13-də keçirilən mərasimdə Prezident İlham Əliyev qeyd edib: **"İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq".**

**- Rauf müəllim, sizcə, yaradılan infrastruktur, şəraitlə yanaşı, ölkəmizdə idmanın kütləviliyinin təminatında bu sahənin inkişafı ilə bağlı qəbul olunan Dövlət proqramlarının, qanunvericiliyin rolu hansı səviyyədədir?**

- Ümumiyyətlə, bir faktı mütləq şəkildə qeyd etmək lazımdır ki, Azərbaycan dünyada elə ölkələrdəndir ki, bütün sahələrdə əldə olunan nailiyyətlər konsepsiyaya əsaslanır. O cümlədən də idman sahəsindəki qələbələr, nəticələr də məhz konsepsiyaların, uzun dövr üçün hazırlanan proqramların nəticəsində əldə olunub. Prezidentimizin də qeyd etdiyi kimi, idmanın inkişafı dövlət siyasətidir və bu inkişafı müəyyən edən bütün amillər Azərbaycanda var. Prezident İlham Əliyevin şəxsi səyi sayəsində bölgələrdə gənclərin sağlam şəkildə yetişdirilməsi, ölkəmizin genefondunun - gənclərimizin sağlam ruhda böyüməsi üçün əsaslı addımlar atılır. Digər tərəfdən, hər bir istiqamət kimi idmanın inkişafı da ölkə qanunları çərçivəsində tənzimlənir. Bu gün ölkəmizdə idman təkcə yeniyetmə və gənclər arasında deyil, həm də yaşlılar, əlillər, məktəbəqədər, ibtidai məktəb səviyyəsində də inkişaf etdirilir. "Bədən tərbiyəsi və idman haqqında" Qanun ölkəmizdə idmanın həm yüksək səviyyədə inkişafını, həm də bu inkişafın sistematikliyini təmin edir. Qanunda da göstərilir ki, bu istiqamətdə dövlət siyasətinin məqsədi bədən tərbiyəsi və idmanın hüquqi bazasını, bədən tərbiyəsi və idmanın inkişafının təmin etdirilməsini, yüksək dərəcəli idmançıların hazırlanması üçün bədən tərbiyəsi-idman təşkilatlarını, uşaq idman müəssisələri sistemini yaratmaqdan ibarətdir. Yəni, bu sahədə nailiyyət əldə olunması üçün bütün imkanlar yaradılır. O cümlədən bu gün bütün idman təşkilatları üçün bərabər imkanlar yaradılıb və bütün idman sahələri inkişaf etdirilir. Bu özü-özlüyündə həm də sistematikliyi, davamlılığı təmin edir.

Dekabrın 13-də keçirilən mərasimdə Prezident İlham Əliyev idman infrastrukturunun yaradılmasının əhəmiyyətini vurğulayaraq qeyd edib: **"Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır".**

Təbii ki, nəzərə alsaq ki, idmanla peşəkar səviyyədə məşğul olan insanların əksəriyyəti gənclərdir, idmana qayğı, idmanın kütləviliyi həm də gənclərin inkişaf etdirilməsi sahəsində görülən işdir. Bu baxımdan, ölkəmizdə gənclərin inkişafına həsr olunan Dövlət proqramlarında, konsepsiyalarda idmanın inkişafı məsələsi də prioritet olaraq müəyyənləşdirilir. Gənclər arasında maarifləndirici təbliğatın aparılması, idmana cəlb olunması bu məsələdə əsas xətt sayılır. Əsas məqsəd gənclərin sağlamlığının qorunması və buna xidmət edən təşviqedici və maarifləndirmə tədbirlərinin keçirilməsidir. Unutmayaq ki, sağlam gənclik həm də sağlam gələcək deməkdir.

Bütövlükdə, ölkə rəhbərliyinin qayğısı ilə həyata keçirilən bu tədbirlər bir daha onu deməyə əsas verir ki, ölkəmizdə idmanın inkişafı gələcək illərdə də yüksək səviyyədə təmin olunacaq.

# Vitali Kliçko: Azərbaycan şirkətləri Kiyevdə infrastruktur layihələrinin icrasında fəal iştirak edirlər

Azərbaycan şirkətləri Kiyev şəhərində yol, infrastruktur layihələrinin icrasında fəal iştirak edirlər.

AZƏRTAC xəbər verir ki, bu fikri Kiyev şəhər Dövlət Administrasiyasının rəhbəri Vitali Kliçko Yeni il münasibətilə xarici ölkələrin Ukraynadakı diplomatik korpus rəhbərləri üçün təşkil etdiyi rəsmi qəbulda çıxışı zamanı söyləyib.



V.Kliçko bildirib ki, hər bir paytaxt ölkənin simasıdır. Azərbaycan şirkətləri Ukraynanın ürəyi hesab edilən Kiyevin gözəlləşməsi üçün keyfiyyətli işlər həyata keçirirlər. Buna görə V.Kliçko tədbirdə iştirak edən Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevə öz təşəkkürünü bildirib.

Qeyd olunub ki, Almaniya, Belarus və İsveç şirkətləri də Kiyevdə həyata keçirilən iri layihələrdə yaxından iştirak edirlər.

# Şəhid hərbi qulluqçuların ailələrinə birdəfəlik ödəmənin verilməsi prosesi tam şəffaf şəkildə həyata keçirilir

*Bu məqsədlə dövlət büdcəsindən cari il üçün 58 milyon, 2019-cu il üçün isə 50 milyon manat maliyyə vəsaiti ayrılıb*



Azərbaycan sosial dövlətdir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda ədalətli resurs bölgüsü həyata keçirilir və qayğıya ehtiyacı olan bütün vətəndaşlar, o cümlədən də şəhid ailələri, müharibə əlilləri dövlət tərəfindən dəstəklənir.

### RESPUBLİKAMIZDA ŞƏHİD AİLƏLƏRİNƏ, MÜHARİBƏ ƏLİLLƏRİNƏ DÖVLƏT QAYĞISI ÇOXŞAXƏLİ SƏCİYYƏ DAŞIYIR

Respublikamızda doğma Vətənin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin ailələrinə, eləcə də müharibə əlillərinə dövlət qayğısı çoxşaxəli səciyyə daşıyır. Ölkəmizdə şəhid ailələrinə 242 manat məbləğində aylıq Prezident təqaüdü verilir. Eyni zamanda, Milli Qəhrəmanlara və ya həlak olanların ailələrinə aylıq 1500 manat Prezident təqaüdü ödənilir. Müvafiq kateqoriyadan olan insanların əmək pensiyasına hər ay müəyyən həcmdə vəsait əlavə olunur. Eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət verilir. Bundan başqa, şəhid ailələrindəki uşaqlara aylıq sosial müavinət ödənilir. Eləcə də şəhid ailələrinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda onların təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

Respublikamızda şəhid ailələri ilə yanaşı, müharibə əlillərinə də dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Bütövlükdə il ərzində dövlət vəsaiti hesabına orta hesabla 7,1 min əlilliyi olan şəxsə və şəhid ailəsi üzvünə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən sanator-kurort putyovkası və istirahət göndərişləri verilir. Müharibə əlilləri Prezidentin aylıq təqaüdü ilə təmin olunurlar. Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərinin böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, qalan az bir qismi isə əlilliyə görə müavinət alır. Bundan başqa, müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinət verilir. Respublikamızda il ərzində dövlət vəsaiti hesabına 1,8 - 2 min nəfər müharibə əlilinə protez-ortopedik xidmət göstərilir. Onlara orta hesabla 6500-7000 reabilitasiya vasitəsi (əlil arabası, eşitmə aparatı, ortopedik ayaqqabı və s.) verilir. Qarabağ müharibəsi əlillərinin uşaqları da dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda onların təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

Məlumdur ki, respublikamızda Prezident İlham Əliyevin 7 aprel 2016-cı il tarixli Sərəncamı əsasında 2017-ci ilin əvvəlindən işsizliyin və yoxsulluğun azaldılmasını hədəfləyən səmərəli özünüməşğulluq proqramı reallaşdırılır. Şəhid ailələri və müharibə əlillərinin bu proqramda iştirakı yüksək səviyyədə təmin edilir. Özünüməşğulluq proqramına təkcə 2018-ci ildə 158 şəhid ailəsi, 1000 nəfərdən çox əlilliyi olan şəxs (onlardan bir hissəsi Qarabağ müharibəsi əlilidir) cəlb olunub.

### ŞƏHİD AİLƏLƏRİNİN, MÜHARİBƏ ƏLİLLƏRİNİN MƏNZİL-MƏİŞƏT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI DAVAMLI OLARAQ DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

Respublikamızda şəhid ailələrinə, müharibə əlillərinə davamlı dövlət qayğısının mühüm bir istiqamətini onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması təşkil edir. Dövlət başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamı Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təminatı işlərinin gücləndirilməsinə yönəlib. 2018-ci il oktyabrın 1-dək ölkəmizdə şəhid ailələrinə, əlilliyi olanlara 6 063 mənzil verilib ki, bunun da 5,6 mini şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə ayrılıb. 2018-ci il avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində müvafiq kateqoriyadan olan insanlara və ailələrə 35 mənzil və 136 minik avtomobili təqdim edilib. Bu istiqamətdə işlərin davamı kimi cari ilin sonuna qədər müvafiq kateqoriyadan olan insanlara və ailələrə daha 548 mənzilin və yaxud fərdi evin təqdim olunması, ümumilikdə 2018-ci ildə 600-ə yaxın mənzilin əlilliyi olan şəxslərə və şəhid ailələrinə verilməsi planlaşdırılıb. Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, dövlət başçısının müvafiq Sərəncamına əsasən Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20,0 (iyirmi) milyon manat ayrılıb. Bu vəsait Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 300 mənzilin alınması üçün nəzərdə tutulub. O cümlədən cari ilin sonunadək Bakıda və Abşeronda 391, regionlarda isə 90 mənzil satın alınaraq müvafiq kateqoriyadan olan ailələrə və insanlara paylanılacaq. Regionlarda həmçinin cari ildə şəhid ailələri və əlilliyi olanlar üçün tikilən 67 fərdi evin inşası başa çatdırılıb.

Respublikamızda müvafiq kateqoriyadan olan soydaşlarımıza avtomobillərin verilməsi də ənənə halını alıb. 2018-ci il noyabrın 1-dək ölkə üzrə müharibə əlillərinə verilən avtomobillərin sayı 6 144-ə çatıb ki, bunun da 265-i cari ildə paylanılıb.

### ÖLKƏ ÜZRƏ 9531 NƏFƏR ŞƏHİD HƏRBİ QULLUQÇUNUN VƏRƏSƏSİNƏ BİRDƏFƏLİK ÖDƏMƏ VERİLMƏSİ NƏZƏRDƏ TUTULUB

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev 19 aprel 2018-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub.

Müvafiq sənədlər əsasında hazırlanan siyahılar üzrə vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ olan şəhid hərbi qulluqçuların sayı 9531 nəfərdir. Yuxarıda qeyd olunan kateqoriyadan olan hərbi qulluqçuların vərəsələrinə ödənilməkdən ötrü cari il üçün 58 milyon, 2019-cu il üçün isə 50 milyon manat maliyyə vəsaiti ayrılıb.

Bəhs olunan Fərman Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğısının bariz nümunəsidir. Yeri gəlmişkən, dövlət başçısının imzaladığı bəhs olunan Fərman əsasında bu günlərdə on bir min manat məbləğində birdəfəlik ödəmə alan vərəsələr ölkəmizdə şəhid ailələrinə göstərilən davamlı diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə edirlər. "Yeni Azərbaycan" qəzetinə açıqlama verən şəhid İlqar Alıyevin vərəsəsi Tapdıq Alıyev ölkəmizdə şəhidlərin xatirəsinin yüksək tutulduğuna və bu günlərdə on bir min manat məbləğində birdəfəlik ödəmə aldığına görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirərək deyib: **"Bütün varlığı ilə öz Vətəninə, xalqına bağlı olan İlqarın qəlbində düşmənə dərin nifrət var idi. O, düşmən ermənilərə qarşı döyüşməyə könüllü getmişdi. İlqar 1992-ci ildə Laçının Sus kəndində xain düşmən gülləsinə tuş gəldi və əbədiyyətə qovuşdu. Biz ailədə 6 nəfərik. Dövlət başçısının Fərmanına əsasən on bir min manat məbləğində birdəfəlik ödəmə almağımız ailəmizin dolanışığına böyük dəstəkdir. Buna görə ailəmiz adından hörmətli Prezidentimiz İlham Əliyevə minnətdarlıq edirəm".**

### VƏRƏSƏLƏR BİRDƏFƏLİK ÖDƏMƏNİ ALARKƏN HƏR HANSI BİR NEQATİV HALLA ÜZLƏŞMƏDİKLƏRİNİ BİLDİRİRLƏR

Respublikamızda bəhs olunan Fərmanın icrası yüksək səviyyədə təmin edilir. Belə ki, noyabrın 14-dən birdəfəlik ödəmənin verilməsi prosesinə başlanılıb. Müvafiq komissiya tərəfindən 7 dekabr 2018-ci il tarixinədək 750 şəhidin 1035 vərəsəsinə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib. Onlardan 350-dək vərəsənin bank hesabına vəsait köçürülüb, eyni zamanda məhkəmə qərarı əsasında 473 şəhidin 474 vərəsəsinə ödəniş edilib. Bütövlükdə, ölkə üzrə 1223 şəhid hərbi qulluqçu üzrə 1509 vərəsəyə dair qərarlar verilməklə ödənişlər həyata keçirilir. Birdəfəlik ödəmə alan vərəsələr bildirirlər ki, sənədlərin hazırlanması, vərəsəliyin tanınması zamanı hər hansı bir süründürməçilik və digər neqativ halla üzləşməyiblər. Proses tam şəffaf şəkildə həyata keçirilir. Bunu qəzetimizə açıqlamasında şəhid Muxtar Abbasovun vərəsəsi qismində tanınan atası Abbas Abbasov da təsdiqləyib. **"Mən oğlum Muxtar Abbasovun vərəsəsi qismində tanınmışam və məhkəmə qərarı əsasında on bir min manat məbləğində birdəfəlik ödəmə almışam. Oğlum Muxtar "Haramı düzü" deyilən ərazidə gedən döyüşlərdə həlak olub. O, 1992-ci ildən ermənilərə qarşı vuruşurdu və 1994-cü ildə haqq dünyasına qovuşdu - onu doğma torpağa tapşırdıq. Bir ata kimi oğlumun itkisinə kədərlənsəm də, təsəlli yerim ordumuzun güclənməsi və dövlətin, Prezidentin həmişə şəhid ailələrinin yanında olmasıdır"**, - deyə A.Abbasov vurğulayıb.

**Mübariz ABDULLAYEV**

# Şinzo Abe: Yaponiya Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verir



Yaponiyanın Baş naziri Şinzo Abe tərəfindən bu ölkədə akkreditasiya olunmuş yapon dilində danışan səfirlər üçün görüş-nahar təşkil olunub. Tədbirdə Baş nazirin dəvəti ilə Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə də iştirak edib.

AZƏRTAC xəbər verir ki, görüşdə hər bir səfir Baş nazir ilə söhbət etmək imkanı qazanıb. Söhbət zamanı G.İsmayılzadə, ilk növbədə, Baş nazirə dəvət üçün minnətdarlığını ifadə edib. Diplomat 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyinin qeyd edildiyini, Cümhuriyyətin 1918-1920-ci illərdə müsəlman dünyasında parlament respublikası modeli əsasında qurulmuş çoxpartiyalı ilk demokratik dövlət olduğunu xüsusi vurğulayıb.

Azərbaycanın Yaponiya ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edən G.İsmayılzadə iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib, əməkdaşlığımızın xüsusən iqtisadi sahədə genişləndirilməsinin vacibliyinə diqqət çəkib. G.İsmayılzadə Yaponiya şirkətlərinin Azərbaycanın enerji sektorunda geniş fəaliyyəti haqqında məlumat verib, ölkəmizin qeyri-enerji sektorunda da Yaponiya ilə əməkdaşlıq üçün yüksək potensialın olduğunu qeyd edib.

Ətraflı məlumata görə minnətdarlığını bildirən Baş nazir Şinzo Abe Yaponiyanın Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verdiyini deyib.

Tədbirdə yapon dilində danışan cəmi 23 səfir iştirak edib.

Xatırladaq ki, ilk belə görüş 2015-ci ilin dekabrında, daha sonra 2017-ci ilin yanvarında və dekabrında təşkil edilib və bu görüşlərin hamısında Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə iştirak edib.

# Yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb



Dünən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək" tvininq layihəsi çərçivəsində Avropa İttifaqının maliyyə dəstəyi ilə keçirdiyi "Əhalinin sağlamlığının qorunmasında icbari tibbi sığortanın rolu" mövzusunda yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd əhalinin icbari tibbi sığorta (İTS) və sığorta çərçivəsində təminat verilən tibbi xidmətlər haqqında məlumatlılığını artırmaqdan, ictimaiyyətin rəy və münasibətini öyrənməkdən, Azərbaycanda İTS-nin uğurlu tətbiqi üçün alternativ dayanıqlı maliyyə mənbələrinin və bu sahədə beynəlxalq təcrübənin təhlili ilə əlaqədar araşdırmalar aparmaqdan ibarət idi.

Mükafatlandırma mərasimində çıxış edən Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova müsabiqədə iştirak edən KİV nümayəndələrinə, müsabiqənin təşkilinə dəstək göstərdiklərinə görə tvininq layihəsinin nümayəndələrinə öz dərin minnətdarlığını bildirib. Yazı müsabiqəsinə 29 məqalənin təqdim edildiyini diqqətə çatdıran departament rəhbəri məqalələrin Agentliyin və tvininq layihəsinin ekspertləri tərəfindən (7 nəfər) qiymətləndirildiyini qeyd edib.

Tvininq layihəsinin daimi müşaviri Qediminas Çerniauskas deyib ki, sosial-iqtisadi islahatların uğurla həyata keçirilməsi üçün vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi və media nümayəndələrinin prosesdə iştirakı çox önəmlidir. İTSDA-nın Monitorinq, təhlil və aktuari departamentinin rəhbəri Araz Nəsirov və Tibbi sığorta departamentinin rəhbəri Vüqar Qurbanov əhalinin dolğun və obyektiv məlumatlandırılmasında KİV-in rolu və KİV nümayəndələri ilə əməkdaşlığın genişləndirilməsinin önəmindən bəhs ediblər.

Müsabiqədə ilk üç yeri tutanlar mükafatlandırılıblar. Bununla yanaşı, on nəfərə həvəsləndirici mükafatlar da təqdim edilib. Qeyd edək ki, mükafat alanlar sırasında "Yeni Azərbaycan" qəzetinin əməkdaşı da var.

# Erməni mediası Nikol Paşinyan və komandasını ifşa edir

*Həmin yazılarda yeni hökumətin siyasətinin yalnız bəzi marginal qrupların və xarici ölkələrlə əlaqəli şəxslərin planlarını həyata keçirməyə hesablandığı xüsusi vurğulanır*



Ermənistanda əhali yeni hakimiyyətin hansı proqram və məqsədlər həyata keçirəcəyini gözlədiyi bir vaxtda bir sıra erməni media orqanları Nikol Paşinyanın siyasətinin yaxşı heç nə vəd etmədiyini qabardır. Qeyd olunur ki, N.Paşinyanın son 7 ay ərzində atdığı addımlardan fərqli siyasət həyata keçirəcəyinə artıq heç kim inanmır. N.Paşinyanın işğalçı dövləti hansı səmtə aparacağı barədə suallar onun hökumətindəki kadrların keçmişdəki və indiki fəaliyyətləri fonunda daha da çoxalır. Buna görə də N.Paşinyana qarşı media orqanlarında çoxsaylı tənqidlərə rast gəlmək olur.

Məsələn, bu günlərdə "Çıxış" blokunun nümayəndəsi, N.Paşinyanın ən yaxın silahdaşlarından biri, yeni parlamentin spikeri və ya vitse-spikeri vəzifəsinə namizədlərdən biri olan Alen Simonyanın 2017-ci ildə irəli sürdüyü proqram ortaya çıxarılıb. "qolosarmenii.am" saytı yazır ki, sən demə, N.Paşinyanın ən üzdə olan kadrlarından olan A.Simonyanın proqramında Ermənistan üçün reallaşdırılmasının vacib olduğu məsələlər sırasında ilk növbədə narkotiklərin, pornoqrafik materialların istehsalı və yayılması, eyni cinsdən olanların nikahının qanuniləşdirilməsi də var. Adıçəkilən sayt onun bu qəbildən olan planlarının reallaşdırılmasının "ailə" məfhumunun dağıdılmasına hesablandığını qeyd edir. Həmin yazıda yeni hökumətin siyasətinin yalnız hansısa marginal qrupların və xarici ölkələrlə əlaqəli şəxslərin planlarını həyata keçirməyə hesablandığı barədə qeydlər də yer alır.

"Aysor.am" saytı isə yazır ki, N.Paşinyan hakimiyyəti homoseksualların qarşısında götürdüyü öhdəliyi yerinə yetirmək üçün daha bir addım atıb. Belə ki, bundan sonra Ermənistandakı homoseksuallar rahatlıqla kişi adlarını qadın adı ilə əvəz edə biləcəklər. "Jamanak" qəzeti də N.Paşinyanın blokundan namizədlərdən biri Sergey Movsesyanın Əştərəkdə fəaliyyət göstərən gecə klubunun meneceri olduğunu yazaraq N.Paşinyanın kadr seçimindəki mənfi xüsusiyyətlərini qabartmağa çalışıb.

"Pandukht.livejournal.com" saytı isə "Məğlubiyyətin anatomiyası" sərlövhəli yazıda N.Paşinyanın avtobioqrafiyasına diqqət yetirərək onu kəskin tənqid edib.

Ermənistanda sosial-iqtisadi vəziyyət isə acınacaqlı olaraq qalır. N.Paşinyanın özü də etiraf edib ki, gələcək beş il ərzində işğalçı ordunun hərbi qulluqçularının sosial-məişət şəraitini yaxşılaşdırmaq üçün 2,5 milyard dollar lazımdır. Hökumətin iclasında çıxış edən N.Paşinyan bu məbləğin tapılmasının vacibliyindən danışıb. Bu isə qeyri-mümkündür, çünki işğalçılıq siyasəti ilə özünü təcrid vəziyyətinə salan Ermənistan əhalini istehsaldan əldə edilən gəlirlə yox, xaricdən yığılan ianələr hesabına güclə dolandırır.

"Hraparak" qəzeti yazır ki, 2018-ci ilin sonunda N.Paşinyan üçün çətin günlər yaxınlaşır. Qəzet həyəcan təbili çalır ki, Rusiyanın Ermənistana ucuz qaz satışı ilə bağlı müqavilənin müddəti ilin sonuna qədər başa çatacaq. Vurğulanır ki, Ermənistan və Rusiya arasındakı münasibətlərin gərginləşməsi, 8 aydır baş nazir olan Nikol Paşinyanın hələ rəsmi olaraq Rusiyaya dəvət olunmaması rus qazının qiyməti ilə bağlı problemi daha da çətinləşdirib.

Göründüyü kimi, hazırda Ermənistanda baş verənlərin fonunda erməni mediasında Nikol Paşinyan və komandası ifşa olunur, yeni hökuməti çətin günlər gözlədiyi bildirilir. Yeni hökumətin işğalçı dövlətə əvvəlki terrorçu rejimdən daha çox zərbə vurduğu barədə erməni mediasındakı ittihamlar Ermənistanın daxilində N.Paşinyanı sıradan çıxarmaq naminə bəzi qüvvələrin birləşdiyinə dəlalət edir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Azərbaycanın bölgələrində tingçiliyin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər uğurla davam etdirilir

*Ölkəmizdə tingçilik təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzindədir*



Bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edən Azərbaycanın dinamik inkişafı davamlı xarakter daşıyır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu inkişaf siyasəti bütün sahələrdə müsbət göstəricilərin qeydə alınmasını şərtləndirib. İnkişaf göstəriciləri Azərbaycanın bölgələrini də əhatə edir, regionların tərəqqisi ardıcıl səciyyə daşıyır. Regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində bölgələrin siması əsaslı dərəcədə dəyişilib, bütün sahələrdə mühüm inkişaf göstəriciləri əldə olunub. Eyni zamanda, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində müxtəlif istiqamətlərdə qarşıya qoyulan vəzifələr müvəffəqiyyətlə icra edilir.

Qeyd etmək lazımdır ki, bölgələrdə aqrar sektorun inkişafı istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, müsbət nəticələr əldə olunur. Bu kontekstdə meyvəçiliyin və baramaçılığın inkişafına xidmət edən səmərəli tədbirləri də ayrıca vurğulamaq gərəkdir. Hər iki sahənin inkişafında bir çox faktorlarla yanaşı, müasir tingçilik təsərrüfatlarının da xüsusi rolu var. Ölkəmizdə tingçilik təsərrüfatlarının maddi-texniki bazasının mütəmadi olaraq möhkəmləndirilməsi isə bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Ümumiyyətlə, Azərbaycanın regionlarında tingçiliyin inkişafı diqqət mərkəzində saxlanılır, bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir. Yeri gəlmişkən, dekabrın 14-də Qubada şimal bölgəsinin fermerləri mütəxəssislərlə birlikdə "Yeni intensiv bağların salınmasında innovativ metodlarla alınmış tinglərdən istifadə olunması və tingçiliyin elmi əsaslarla inkişafı" mövzusunu müzakirə ediblər. Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti ilə Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun birgə təşkil etdikləri regional müşavirədə Dövlət Fitosanitar Xidmətinin, Aqrar Elm və İnnovasiya Mərkəzinin mütəxəssisləri də iştirak ediblər. Müşavirə tingçiliyin elmi əsaslarla inkişafı, yeni intensiv bağların salınması, becərilməsi, damcı suvarma üsulunun tətbiqi, ting istehsalı, intensiv bağların salınmasında tinglərə tələbatın yerli istehsal hesabına ödənilməsi məsələlərinin müzakirəsi məqsədilə təşkil olunub. Bununla yanaşı, bölgə fermerləri tamamilə yenidən qurulmuş Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda yaradılan şərait və burada innovativ metodlarla ting istehsalı texnologiyaları ilə əyani tanış olmaq imkanı qazanıblar. Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin rəisi İmran Cümşüdov müşavirədə "Respublikada tingçiliyin inkişafında yeni innovativ texnologiyaların tətbiqi və qarşıda duran vəzifələr" mövzusunda məruzə ilə çıxış edərək son zamanlar aqrar sahədə həyata keçirilən islahatlardan danışıb. Bildirilib ki, yeni innovativ texnologiyaların tətbiqinə, həmçinin toxumçuluğun və tingçiliyin inkişafına dövlət qayğısı göstərilir, bir çox sahələrdə güzəştlər tətbiq olunur. Məruzədə qarşıda duran əsas hədəfin fermerlərin keyfiyyətli tingə tələbatının daxili istehsal hesabına ödənilməsi olduğu qeyd edilib. İmran Cümşüdov əlavə edib ki, daim fermerlərin yanında olmaq və onların qarşılaşdıqları problemlərin yerində həll edilməsi əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Qarşılıqlı müzakirələrlə keçən müşavirədən sonra tədbir iştirakçıları Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda yaradılan şərait və burada innovativ metodlarla ting istehsalı ilə əyani tanış olublar. Diqqətə çatdırılıb ki, institutda yaradılan biotexnologiya laboratoriyası ölkəmizdə meyvəçiliyin inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Bu laboratoriya sayəsində fermerlər sağlam əkin materialları ilə təmin olunacaqlar. Bununla yanaşı, çətin köklənən bitkilərin laboratoriya şəraitində böyüdülməsi də həyata keçiriləcək. Laboratoriyada çalışan əməkdaşlar Belarus və Türkiyədə biotexnologiya üzrə təcrübə keçiblər. Hazırda laboratoriyadakı iqlim otağında mikroklonal çoxaltma üsulu tətbiq edilməklə müxtəlif bitkilər yetişdirilir. Bu üsulla sortun xüsusiyyətlərini özündə daşıyan çox miqdarda eyni bitkilərin alınması mümkündür. Biotexnologiya laboratoriyasında bir tumurcuqdan 105-107 yeni bitki alınır. Laboratoriyanın əməkdaşları 17 bitkinin mikroklonal üsulla çoxaldılmasını mənimsəyiblər. Yaxın gələcəkdə belaruslu və türkiyəli mütəxəssislərlə birgə əməkdaşlıq sayəsində fındıq, qoz və başqa meyvələrin də yeni üsulla artırılmasına başlanılacaq.

Cəbhə bölgəsində yerləşən Tərtər rayonunda isə əhalinin əsas məşğuliyyət növlərindən biri bağçılıq və tingçilikdir. Son illərdə kənd təsərrüfatının digər sahələri kimi, bu istiqamətdə də inkişafa nail olunub. Tərtərli fermerlərin yetişdirdikləri tinglərdən respublikanın bütün regionlarında meyvə bağlarının salınmasında istifadə edilir. Qaraağacı kəndi ərazisindəki tingçilik təsərrüfatının rəhbəri Mütalib Qurbanov da müxtəlif növ ağac tingləri yetişdirir. M.Qurbanov KİV-ə müsahibəsində bildirib ki, təsərrüfatı yaratmaqda məqsədi daha çox tələbat olan meyvə tinglərini xaricdən gətirib, yerli torpaq-iqlim şəraitinə uyğunlaşdırmaq və çoxaltmaqdır. Xaricdən gətirilən meyvə tinglərinin Azərbaycanın torpaq-iqlim şəraitinə uyğunlaşmasını yoxlamaq üçün sınaq bağı yaratdığını deyən M.Qurbanov hər bir ting bar verdikdən sonra onun satışını həyata keçirdiyini bildirib. Yəni yeni sortların torpaq-iqlim şəraitinə uyğunlaşması, məhsuldarlığı nəzərə alınır. **"Hər hansı bir sort Azərbaycan torpaq-iqlim şəraitinə uyğun deyilsə, satışa çıxarmırıq. Məsələn, yerli gilas sortları ilə yanaşı, "Napoleon", "Romanovka", "Sputnik" sortlarını yetişdiririk. Onların məhsuldarlığı da yüksək olur",** - deyə o bildirib. Mütalib Qurbanov bağ salmaq istəyən fermerlərə tövsiyə də edib ki, fermerlər ting alarkən təsərrüfat rəhbərləri ilə müqavilə bağlamalı, sertifikat tələb etməlidirlər. **"Dövlət Aqrar İnkişaf Mərkəzi ilə əlaqə saxlasınlar. Laboratoriyada torpaq analizinin verilməsi də vacibdir. Hansı torpaqda hansı tingin əkilməsi məqbul sayılarsa, o tingləri alsınlar",** - deyə M.Qurbanov vurğulayıb. Tingçilik təsərrüfatının rəhbəri dövlətimiz tərəfindən aqrar sahənin inkişafına göstərilən diqqət və qayğıya, o cümlədən tingçiliklə məşğul olan fermerlərə subsidiya verilməsinə görə razılığını ifadə edib. Bildirib ki, subsidiyaların verilməsi yeni sort meyvə tinglərinin respublikamıza gətirilməsinə, tingçiliyin inkişafına təkan verir.

Bunlarla yanaşı, baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən 70 mininin Bərdə rayonunda əkilməsi nəzərdə tutulur. Tinglərin əkilməsinə başlanılıb. Bölgü əsasında əvəzsiz olaraq təsərrüfatlara, barama istehsalçılarına paylanılan tinglərin 49 min 650 ədədi artıq Çin texnologiyası əsasında əkilib. Sahələrin hazırlanması və əkin işləri mütəxəssislərin nəzarəti altında aparılır. Bundan əlavə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 110 min tingin əkilməsi də nəzərdə tutulur. Bu günədək yerli tut tinglərindən 57 min 500 ədədinin əkini həyata keçirilib. Qeyd edək ki, baramaçılığın inkişafı, ipəkqurdunun yem təminatının möhkəmləndirilməsi məqsədilə 2016-cı ildə 60 min 700 ədəd, 2017-ci ildə isə 168 min tut tingi əkilib. Rayon kümçüləri 2016-cı ildə 4,5 ton, 2017-ci ildə 12,5 ton, 2018-ci ildə isə 24,5 ton barama istehsal ediblər. Rayon ərazisindəki mövcud və yeni əkilən tut ağacları, əhalinin baramaçılıq sahəsindəki təcrübəsi, həmçinin bu sahənin gəlirli olması barama istehsalını artırmağa imkan verir.

Digər tərəfdən, intensiv tipli yeni tut bağlarının salınması məqsədilə bir müddət əvvəl Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən 70 mini bölgü əsasında Balakən rayonuna göndərilib. Artıq tinglərin əkini tam təmin olunub. Payız mövsümündə rayon ərazisində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 130 min ədəd yerli tut tinginin əkilməsi də planlaşdırılır. Bu günədək rayonun qəsəbə və kəndlərində bələdiyyə və xüsusi mülkiyyətə aid torpaq sahələrində nazirlik tərəfindən 72 min ədəd yerli tut tingi əkilib və bu istiqamətdə işlər davam etdirilir.

Baramaçılığın inkişafı məqsədilə xocavəndli məcburi köçkünlərin məskunlaşdıqları Beyləqan rayonu ərazisindəki Xocavənd qəsəbəsində 7500 ədədi Çindən gətirilmiş, 15 min ədədi isə yerli olmaqla, 22 min 500 ədəd tut tingi əkilib. Qeyd edək ki, ötən ilin payızında xocavəndli məcburi köçkünlər tərəfindən Beyləqan rayonu ərazisində 15 min 500 ədəd tut tingi əkilib. Uzun illərdən sonra ilk dəfə olaraq ipəkqurdu bəsləyən xocavəndli məcburi köçkünlər 1 ton 47 kiloqram barama tədarük ediblər.

Saatlıda isə ilin sonunadək 15 min ədəd tut tingi əkiləcək. Daha dəqiq desək, Çin Xalq Respublikasından ölkəmizə gətirilən və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yetişdirilən tut tinglərindən 15 min ədədi Saatlıda əkilir. Tut tinginin 5 min ədədi Çin Xalq Respublikasından gətirilib, 10 mini isə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ayrılıb. Tut tingləri rayonun Bəylər kəndi ərazisində, Sabit kanalının sağ qolu boyunca və Mil-Muğan kollektorunun mühafizə zolağında əkilir. Artıq tinglərdən 4 min 900 ədədi əkilib. Qalan 1100 ədədinin əkini isə yaxın günlərdə başa çatdırılacaq. Tinglərin əkinində mütəxəssislər yaxından iştirak ediblər. Qeyd edək ki, rayonda 2016-cı ildə 60 min, 2017-ci ildə isə 4 min ədəd tut tingi əkilib.

Bütövlükdə, Azərbaycanın bölgələrində tingçiliyin inkişafına xidmət edən ardıcıl və məqsədyönlü tədbirlər uğurla davam etdirilir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Bakcell karyera qurmaqda tələbələrə dəstək göstərir



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Azərbaycan Texniki Universitetinin tələbələri üçün təşkil olunmuş karyera sərgisində iştirak edib.

Azərbaycan Texniki Universitetinin Karyera Mərkəzi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilmiş karyera sərgisində 70-ə yaxın şirkət və müəssisə iştirak edib. Sərgi tələbələrə məşğulluq, iş, təcrübə imkanları təklif etməklə yanaşı, müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə peşəkar ünsiyyət qurmağa şərait yaradib.

Tədbirdə iştirak edən tələbələrə "Bakcell"in satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib. Şirkət nümayəndələri işaxtaranlar və potensial namizədlərlə müsahibələr keçirib.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti, Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənc mütəxəssislərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət bir sıra iri karyera sərgisində iştirakla yanaşı özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib.

Bakcell şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

# "Nar" tələbələr üçün yeni iş imkanları təklif edir



"Nar" tələbələrin öz ixtisasları üzrə uğurlu karyera qurmalarına kömək etmək məqsədilə gənclərə dəstək olub. Mobil operator Azərbaycan Texniki Universitetində (AzTU) təşkil olunan 1-ci Karyera Sərgisində iştirak edib. Gənclərin karyera qurmalarına dəstək məqsədilə keçirilən sərgidə "Nar" biznesin təhlili üzrə mütəxəssis, media əlaqələri üzrə mütəxəssis, eyni zamanda məhsulların inkişaf etdirilməsi üzrə aparıcı mütəxəssis və korporativ satış üzrə mütəxəssis vəzifələrinə sənəd qəbulu təşkil edib. Dekabrın 14-də keçirilən sərgidə Azerfon MMC ("Nar" ticarət nişanı) ilə yanaşı, 70-dən çox şirkət iştirk edib. 1500-dək tələbə və məzunun iştirak etdiyi sərgidə "Nar" stendinə maraq böyük olub.

Qeyd edək ki, sərgi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə "Karyerada ilk addım" şüarı altında keçirilib. Sərginin keçirilməsinin əsas məqsədi gənclərin məşğulluğunun artırılması, iş təcrübəsi olmayan gənclər üçün karyera fürsəti yaratmaq, məşğulluq bacarıqlarını inkişaf etdirməklə onların iş imkanlarını genişləndirməkdir.

Qeyd edək ki, gənclərə dəstək "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. "Nar" AzTU ilə əməkdaşlıq çərçivəsində tələbələr üçün "Mobil rabitənin əsasları" mövzusunda təlimlər keçirib. 2016-ci ildə Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsinə əsasən universitetdə "Nar" GSM laboratoriyası yaradılıb. Müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada tələbələr mobil rabitə üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanırlar.

# "Nar" mətbuat nümayəndələrini bir araya topladı



"Nar" qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə mətbuat nümayəndələrini bir araya toplayıb və onlar üçün növbəti dəfə əyləncəli bilik yarışması təşkil edib. Tədbirdə 55-dən çox media orqanını təmsil edən 100-ə qədər jurnalist iştirak edib. Yarışmada ümumi biliklərlə yanaşı, milli və dünya mədəniyyətinə, tarixinə aid müxtəlf suallar təqdim olunub.

"Azerfon" MMC-nin İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov media nümayəndələrini qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edib və bildirib ki, "Nar" mediaya yönəlmiş layihələrini növbəti il də reallaşdıracaq.

2 saatdan çox davam edən bilik yarışmasında 18 komanda iştirak edib. "Sophianın Azərbaycandakı dostları" komandası 1-ci, "Yeni Müsavat" komandası 2-ci, "Komandos" komandası isə 3-cü yeri tutublar. Qalib komandalar "Nar"-dan xüsusi hədiyyələr qazanıblar. Bundan başqa, tədbir zamanı xüsusi əyləncəli müsabiqələr keçirilib və qaliblərə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, "Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif səpkili bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir, maariflənməni təşviq edir.

# Azercell diler və eksklüziv mağazalarında xidmət keyfiyyətini artırır



Fəaliyyətində müştəri məmnuniyyətinə böyük önəm verən və abunəçilərinə yüksək keyfiyyətli xidmət göstərən Azərbaycan rabitə bazarının lider mobil operatoru "Azercell Telekom " MMC diler və xidmət şəbəkəsini daim təkmilləşdirir və inkişaf etdirir. Göstərilən xidmət növündən asılı olmayaraq istifadəçilərin məmnunluğu və şirkətin məhsullarına qarşı loyallığı istehlakçılarla münasibətlərin daha dayanıqlı modelinin qurulmasında müstəsna əhəmiyyət daşıyır. Məhz bu səbəbdən Azercell şirkəti yarandığı gündən etibarən müştəri xidmətləri üzrə ölkədə innovativ metodları tətbiq etməyə davam edir. Şirkət hər il bütün diler və mağaza rəhbərlərini bir araya gətirərək, cari ilin nəticələri, abunəçilərə göstərilən xidmətin keyfiyyəti və gələcək perspektivlərin müzakirəsi ilə bağlı görüş təşkil edir. Bu il isə belə bir tədbir Qəbələ şəhərində baş tutub. Tədbirdə bütün Bakı və Region dilerləri və Eksklüziv mağazalarının nümayəndəlikləri iştirak edib. Görüşdə 2019-cu ildə xidmət keyfiyyətinin artırılması üçün təklif və tövsiyələr səsləndirilib. Görüş iştirakçıları üçün Türkiyədən dəvət olunan peşəkar satış mütəxəssisi seminar keçib. Qeyd edək ki, Azercell-in diler mağazasında çalışan əməkdaşlara davamlı olaraq Azercell Akademiyası tərəfindən təlimlər təşkil edilir, eləcə də, xaricdən dəvət olunan peşəkarlar müştəri məmnuniyyəti və satış üzrə xüsusi seminarlar keçirlər.

Nəzərinizə çatdıraq ki, hazırda Azercell abunəçilərini daim yüksək keyfiyyətli xidmətlə təmin etmək üçün Bakıda 138, bölgələrdə 168 diler, ümumilikdə isə 19 Eksklüziv mağazası fəaliyyət göstərir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC",**
**"Azadinform", "SİA"**

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU